

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 118 (7373) / Cümə axşamı, 4 iyul 2019-cu il


# Azərbaycan enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə edib



Prezident İlham Əliyev "Baker Hughes, a GE company" şirkətinin rəhbərini qəbul edib

Bax: səh. 2



## Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır

Bax: səh. 4

## Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüş



Bax: səh. 2

## Yeni Azərbaycan Partiyasında Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası əsl vətənpərvərlik nümunəsi olaraq böyük ruh yüksəkliyi ilə davam edir

Bax: səh. 3



## Heydər Əliyev Fondunun Xəzərin sahilində təşkil etdiyi şənlik uşaqlara unudulmaz bir gün yaşatdı



Bax: səh. 3

## KİV rəhbərlərinin Moskva şəhərinə səfəri davam edir

Bax: səh. 7



## SOCAR-da BMT İnkişaf Proqramının nümayəndə heyəti ilə görüş keçirilmişdir



Bax: səh. 6


4 — *Mixail Qusman:* Soruşma ki, Azərbaycan sənin üçün nə edib, de ki, sən Azərbaycan üçün nə etmisən

9 — TAP boru kəmərinin genişləndirilməsi imkanları araşdırılır

16 — Yeməkdən sonra bunları etməyin

## Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampı təbrik edib




Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa təbrik məktubu göndərib.

Təbrikdə deyilir: *"Hörmətli cənab Prezident, Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.*

*Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır.*

*Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz Cənub Qaz Dəhlizi layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir.*

*Bütün bunlarla yanaşı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem olaraq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.*

*Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyirəm.*

# Azərbaycan enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə edib

### Prezident İlham Əliyev "Baker Hughes, a GE company" şirkətinin rəhbərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də "Baker Hughes, a GE company" şirkətinin sədri, prezidenti və Baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Lorenzo Simonelli Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu vurğuladı. O, Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu dedi və ölkəmizdə neft və qaz sənayesi, turizm, idman və digər sahələrdə əldə olunan nailiyyətlərin önəmini qeyd etdi. Lorenzo Simonelli Azərbaycanda 1840-cı illərdə sənaye üsulu ilə ilk neft quyusunun qazıldığını vurğulayaraq təmsil etdiyi şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına töhfə verməsindən məmnunluq hissi keçirdiklərini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı "Baker Hughes, a GE company" şirkətinin Azərbaycanla neftayırma və digər sahələrdə əməkdaşlığının uğurlu nəticələrinin ölkəmizin enerji sektorunun modernləşməsinə töhfə verməsini yüksək qiymətləndirdi. Azərbaycanda əldə olunan nailiyyətlərə toxunan Prezident İlham Əliyev ölkəmizin enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə etməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Lorenzo Simonellinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə əminliyini bildirdi.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüş




Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 3-də Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya körpələr evi haqqında məlumat verildi. Bildirildi ki, hazırda burada 3 yaşadək 16 uşaq var.

Leyla Əliyeva körpələr evinin sakinləri ilə görüşdü.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva və bu uşaq müəssisəsinin fəaliyyətini daim diqqətdə saxlayır, buradakı balacalara xüsusi qayğı ilə yanaşır, mütəmadi olaraq körpələr evini ziyarət edirlər. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam, dünyagörüşlü, bilikli, savadlı yetişməsi üçün mühüm layihələrə imza atıb. Fondun fəaliyyətində yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yerlərdən birini tutur. Bütün bunlar sübut edir ki, Fond gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.

# Heydər Əliyev Fondunun Xəzərin sahilində təşkil etdiyi şənlik uşaqlara unudulmaz bir gün yaşatdı





**İyulun 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Fondun valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak edib.**









AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu uşaqları paytaxtın dənizkənarı istirahət məkanlarından birində - "Dalğa Beach" istirahət mərkəzində bir araya topladı. Fondun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşıladılar. Nizami rayonunun 1, Suraxanı rayonunun 2, Xətai rayonunun 3 saylı uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda yay mövsümünün ovqatını hiss etdilər, günəşli günlərin qayğısız anlarını yaşadılar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da övladı ilə birlikdə bu şənliyə qoşuldu.

Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, bu isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncə proqramları ilə maraqlı asudə vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Heydər Əliyev Fondunun vitse-prezidenti uşaqlarla söhbət etdi, onlar üçün təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlandı, hər biri ilə şəkil çəkdirdi. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşdülər, burada yeni dostlar qazandıqlarını söylədilər, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışdılar. Bununla da xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu paytaxtdakı uşaq müəssisələrinin sakinləri ilə görüşə növbəti hədiyyəsi ilə gəldi, onlara maraqlı və unudulmaz bir gün yaşatdı.

Fondun vitse-prezidenti Leyla Əliyeva uşaqlarla birgə rəqs etdi.

Hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim olundu. Şənlikdə 200-yə yaxın uşaq iştirak edirdi.

# Yeni Azərbaycan Partiyasında Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası əsl vətənpərvərlik nümunəsi olaraq böyük ruh yüksəkliyi ilə davam edir

**Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində "Silahlı Qüvvələrə Yardım Fonduna dəstək üçün xeyriyyə aksiyası keçirək" sərlövhəli paylaşımında müharibə vəziyyətində, bir milyondan çox məcburi köçkün və qaçqını olan ölkədə xeyriyyə aksiyası keçirmək üçün kifayət qədər səbəblərin olduğunu bildirmişdir. Yeni Azərbaycan Partiyasının dəfələrlə bu cür aksiyalar keçirdiyini xatırladan Əli Əhmədov, Azərbaycan Silahlı Qüvvələrinə dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fondu üçün xeyriyyə aksiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.**



"Gəlin Ordumuza dəstək olaq"- deyən Əli Əhmədov YAP üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək üçün aksiyaya qoşulmağa dəvət edib və nümunə olaraq özünün aylıq əmək haqqının 50 faizini Silahlı Qüvvələrə Yardım Fonduna köçürmüşdür.

Baş nazirin müavini Əli Əhmədovun bu təşəbbüsünü alqışlayan Yeni Azərbaycan Partiyasının üzvləri, eləcə də partiyanın üzvü olmayan insanlar böyük ruh yüksəkliyi ilə Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasında iştirak edirlər. Cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri kütləvi şəkildə bu təşəbbüsə qoşularaq Azərbaycan Ordusuna yüksək dəstək nümayiş etdirirlər.

Silahlı Qüvvələrə Yardım Fonduna dəstək göstərən insanlar sosial şəbəkələrdəki paylaşımlarında bildirirlər ki, Vətən, xalq sözlərini əllərində bayraq edərək, süni şəkildə ictimai narazılıq yaratmağa, sabitliyi pozmağa cəhd edən bəzi dırnaqarası varlıqlara Əli Əhmədovun bu təşəbbüsü tutarlı cavab oldu.

Bu gün Azərbaycanda yüksəlişin və inkişafın simvoluna çevrilmiş Yeni Azərbaycan Partiyasında Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası əsl vətənpərvərlik nümunəsi və böyük ruh yüksəkliyi ilə davam edir.

# Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır



**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-lərə xüsusi açıqlama verib.**

AZƏRTAC açıqlamanı təqdim edir. Açıqlamada deyilir:

-Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb. Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır. Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar.

Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belə olan halda, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?...

Ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni, Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub. Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər.

Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy " nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb.

Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə, terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir. İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir.

# Rumıniyada "SOCAR" brendi ilə 43-cü yanacaqdoldurma məntəqəsi istifadəyə verilib

**Rumıniyada investisiya layihələrini uğurla həyata keçirən SOCAR, bu ölkənin iri şəhərlərində ilbəil yanacaqdoldurma məntəqəsi (YDM) şəbəkəsini genişləndirməkdə davam edir.**




Rumıniyada "SOCAR" brendi altında sayca 43-cü yanacaqdoldurma məntəqəsinin açılışı olmuşdur. Ölkənin şimali-qərb regionunda, Macarıstan və Ukrayna istiqamətindəki avtomagistrallar üzərində yerləşən yeni məntəqə bu regionda müştərilərin ixtiyarına verilən sayca ilk YDM-dir. Məntəqədə 3 sayğac və elektriklə işləyən elektromobillər üçün şarj quraşdırılmışdır. Burada 4 kiçik avtonəqliyyat vasitəsi və 2 iri tutumlu yük maşını eyni anda benzin və dizel yanacaqları ilə təmin ediləcəkdir. YDM ərazisindəki "Nar" kafedə müştərilərə yerli və Azərbaycan məhsulları təqdim olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Made in Azerbaijan" brendinin təbliği istiqamətindəki siyasətinə uyğun olaraq bütün məntəqələrdə Azərbaycan guşəsi yaradılmış və YDM-də ölkəmizdən gətirilən məhsulların satışı həyata keçirilməkdədir.

Xatırladaq ki, SOCAR Rumıniyanın artıq 20 regionunda - Botoşan, Suçeava, Nyamts, İaşi, Bihor, Buzau, Bakau, Vrancea, Timiş, İlfov, Kluj, Valcea, Arad, Argeş, Bistritsa-Nasaud, Hunedoara, Sibiu, Buxarest, Braşov və Satu Maredə yanacaqdoldurma məntəqəsinə malikdir.

## TƏMAS XƏTTİNDƏ NİSBİ SAKİTLİK MÜŞAHİDƏ EDİLİB

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

*Mixail Qusman:*

## Soruşma ki, Azərbaycan sənin üçün nə edib, de ki, sən Azərbaycan üçün nə etmisən




Mən Bakı ənənələri əsasında tərbiyə almışam. Orada insanlar hər gün çay süfrəsi arxasında görüşürlər.

AZƏRTAC xəbər verir ki, Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bu fikirləri TASS-ın jurnalisti Səadət Qədirovanın YouTube "kadyrova.online" kanalında yayımlanan "Arzular gerçəkləşir" adlı müəllif verilişində söyləyib. M.Qusman qeyd edib ki, sosial şəbəkələri xoşlamır. O deyib: "Bu şəbəkələr surroqatdır, onlar canlı ünsiyyəti əvəz etmir. Mayakovski demişkən, bu, qəhvə adı ilə təklif edilən, əslində yerkökündən hazırlanmış içkiyə oxşayır".

M.Qusman S.Qədirovaya müsahibəsində Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə münasibət bildirib, vurğulayıb ki, Rusiyada əslən Azərbaycandan olan görkəmli adamlar yaşayır. Onlar elm, mədəniyyət, biznes və digər sahələrdə təmsil olunur. O deyib: "İnsanlar Rusiya cəmiyyətinin tərkib hissəsidir, lakin eşq olsun onlara ki, öz Vətənləri ilə əlaqəni kəsmirlər. Con Kennedinin məşhur bir kəlamı var: "Soruşma ki, sənin ölkən sənin üçün nə edib, özündən soruş ki, sən öz ölkən üçün nə edə bilərsən".

M.Qusmanın sözlərinə görə, əslən Azərbaycandan olan, lakin Rusiyada yaşayan hər bir azərbaycanlı "Azərbaycan mənim üçün nə edib, - deyə soruşmaq əvəzinə özündən soruşmalıdır ki, mən Azərbaycan üçün nə etmişəm".

Məşhur həmvətənimiz Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının birləşməsinin vacibliyini vurğulayaraq deyib: "Gərək bu təşkilatlar birləşmə formasını tapıb insanlara fayda versinlər".

*Souayibo Varissou:*

## Bakı sessiyasının belə yüksək səviyyədə təşkili digər ölkələr üçün də örnəkdir



Azərbaycan beynəlxalq səviyyədə dünya irsinin qorunmasına mühüm dəstək verir.

Bu fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Afrika Dünya İrsi Fondunun icraçı direktoru Souayibo Varissou deyib.

Ümumdünya İrs Komitəsinin Bakı sessiyasının yüksək səviyyədə təşkil olunduğunu söyləyən qonaq bildirib ki, bu, digər ölkələr üçün də örnəkdir: "Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın iştirakı ilə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının möhtəşəm açılış mərasimi və incəsənət ustalarının ifasındakı musiqili kompozisiya ölkənizin necə zəngin və valehedici mədəniyyətə malik olduğunu bir daha nümayiş etdirdi".

Souayibo Varissou Afrika qitəsindən olan ölkələrin bu sessiyada geniş tərkibdə təmsil olunmasına və onlara göstərilən qonaqpərvərliyə görə Azərbaycana təşəkkürünü bildirib.

Dünyada təhlükədə olan 1092 maddi mədəni irs abidələrinin böyük əksəriyyətinin Afrikanın payına düşdüyünü deyən qonaq qeyd edib ki, bunların arasında dünya əhəmiyyətli tarixi memarlıq abidələri var. Bu abidələrin yaxşı mühafizə edilməməsinin səbəbi isə lazımi infrastrukturun olmamasıdır.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Pediatriya İnstitutunda olub

**İyulun 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Səhiyyə Nazirliyinin Kübra Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda olub.**

AZƏRTAC xəbər verir ki, institutun kollektivi Leyla Əliyevaya bu tibb müəssisəsinə gəldiyinə









görə minnətdarlığını bildirdi.

Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru Nəsib Quliyev məlumat verdi ki, institutda 245 çarpayılıq 8 klinik şöbə və bir çox paraklinik bölmələr fəaliyyət göstərir.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada müalicə olunan uşaqlar və onların valideynləri ilə görüşdü, balacalara hədiyyələr təqdim etdi.

Azərbaycanda ilk yaradılan şəfa ocaqlarından biri olan bu tibb müəssisəsi bir əsrə yaxın vaxt ərzində ana və uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir. Bu institutda həkim-mütəxəssislər və həkim-rezidentlər üçün mühazirələr də təşkil olunur, burada təcrübə keçən həkim-rezidentlər ayda bir dəfə pediatriyanın müxtəlif mövzularında təqdimatlarla çıxış edirlər. İnstitutda respublikanın tibb müəssisələri üçün yüksəkixtisaslı mütəxəssislər və elmi işçilər hazırlanır. Yenidoğulanların 50 çarpayılıq reanimasiya və intensiv terapiya şöbəsi respublika üzrə reanimatoloji-neonatoloji mərkəz funksiyasını yerinə yetirir. Bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə isə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. İnstitutda bir çox illər ərzində pediatriya elminə və elmi kadrların hazırlanmasına böyük töhfə vermiş görkəmli alimlər çalışıb. Bu tibb müəssisəsi dünyanın aparıcı pediatrik səhiyyə müəssisələri ilə sıx əməkdaşlıq və təcrübə mübadiləsi aparır. Son illər ərzində hər il institutun bölmələrində 30 mindən çox uşağa tibbi xidmət göstərilib.

Heydər Əliyev Fondu respublikada ana və uşaqların sağlamlığının mühafizəsinə xüsusi diqqət yetirir. İndiyədək Fondun dəstəyi və təşəbbüsü ilə çox sayda ambulator-poliklinika və stasionar tibb müəssisələri təmir və bərpa olunub, müasir avadanlıqlarla təchiz edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kollektivə uğurlar arzuladı, burada müalicə olunanlara şəfa dilədi.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Live Life" sərgisində yay təcrübəsi keçən tələbələrlə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iyulun 3-də Heydər Əliyev Mərkəzində "Live Life" sərgisində olub və bu beynəlxalq sərgi layihəsi çərçivəsində yay təcrübəsi keçən tələbələrlə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva gənc rəssamların sərgidə nümayiş etdirilən əl işləri ilə tanış oldu.

Sərgi ilə tanışlıqdan sonra yay təcrübəsi məktəbinin iştirakçıları ilə xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının fərqlənmiş 30 tələbəsi "Live Life" sərgisi çərçivəsində iyulun 2-dən Heydər Əliyev Mərkəzində yay təcrübəsi keçir.

İyulun 6-dək davam edəcək yay təcrübəsinin mövzusu "Live Life" sərgisinin ideyası ilə səsləşir və ətraf mühitin problemlərinə, təbiətin qorunmasına, incəsənətin bu sahədə roluna dair ictimaiyyətin maarifləndirilməsinə diqqətin cəlb edilməsini nəzərdə tutur.











Layihədə iştirak edən tələbələr yaradıcılıq üçün zəruri baza dəstləri ilə təmin olunublar. İştirakçılardan hər biri həvəsləndirici mükafat alacaq. Layihənin sonunda isə onların arasından üç qalib seçiləcək və mükafatlandırılacaq.

?Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş "Live Life" sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib və 2018-ci il sentyabrın 28-dən Heydər Əliyev Mərkəzində təqdim edilir. Ekspozisiyada 200-dən çox əsər yer alıb.

# SOCAR-da BMT İnkişaf Proqramının nümayəndə heyəti ilə görüş keçirilmişdir







**İyulun 3-də SOCAR-ın Baş ofisində şirkətin prezidenti Rövnəq Abdullayev və BMT İnkişaf Proqramının (UNDP) Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassettinin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında görüş olmuşdur.**

Görüşdə SOCAR ilə UNDP arasında ekologiya və ətraf mühitin qorunması sahəsində əməkdaşlığın davam etdirilməsi istiqamətində fikir mübadiləsi aparılmış, perspektiv layihələr müzakirə edilmişdir. Nəzərə çatdırılmışdır ki, iqlim dəyişmələri, enerji səmərəliliyi, atmosferə atılan karbon qazının ixtisar edilməsi sahəsində və ümumilikdə birgə ekoloji layihələr hər iki qurumun maraq dairəsindədir. Görüşdə SOCAR və UNDP tərəfindən həyata keçirilən “Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planı” (NAMA) layihəsi tamamlandıqdan sonra bu və digər istiqamətlərdə, o cümlədən neftlə çirklənmiş torpaq və suların təmizlənməsi, təmizlənmiş ərazilərdə yaşıllıqların salınması, qaz borularının modernizasiyası və s. üzrə layihələrin birgə işlənməsi perspektivləri müzakirə olunmuşdur.

2015-ci ilin iyul ayından etibarən SOCAR və UNDP-nin Azərbaycan Nümayəndəliyi tərəfindən “Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planı” (NAMA) layihəsi icra olunur. 5 il müddətinə nəzərdə tutulmuş layihə Qlobal Ekoloji Fond (GEF) və BMT-nin İnkişaf Proqramı tərəfindən maliyyələşdirilir və SOCAR-ın İqlim Dəyişikliyinin Təsirlərinin Azaldılması Strategiyasını dəstəkləmək məqsədi daşıyır. Atmosferə karbon qazı tullantılarını minimuma endirən istehlak sektorları üzrə proqram xarakterli Milli Fəaliyyət Planına uyğun olaraq layihə çərçivəsində istixana effekti yaradan qaz emissiyası təsirlərinin azaldılması tədbirlərinin təşviqi və genişləndirilməsi müvafiq sahələrə pilot investisiya qoyuluşları vasitəsilə həyata keçirilməkdədir.

# “Baker Hughes, a GE company” şirkətinin nümayəndələri SOCAR-da olub





İyulun 3-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev “Baker Hughes, a GE company” şirkətinin sədri və Baş icraçı direktoru Lorenzo Simonellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə dünya neft sənayesində baş verən cari dəyişiklər və transformasiya prosesləri, eləcə də yeni və xüsusən rəqəmsal texnologiyaların neft sənayesində rolunun artması məsələləri müzakirə olunub. Şirkətlər arasında mövcud əməkdaşlığın dərinləşdirilməsi, SOCAR tərəfindən istismar edilən yataqlarda hasilatın artırılması, köhnə quyularda hasilatın bərpası, yeni layihələrdə sualtı texnologiyaların tətbiqi və s. ilə əlaqədar müasir rəqəmsal texnologiyaların istifadəsi üçün daha dayanıqlı əməkdaşlıq modeli ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşdə “Baker Hughes, a GE company” şirkətinin SOCAR-ın Bakı Ali Neft Məktəbi ilə əməkdaşlığına toxunulmuş, Azərbaycanda yüksək səviyyəli kadrların hazırlanmasında bu əməkdaşlığın əhəmiyyəti qeyd olunmuşdur.

“Baker Hughes, a GE company” Azərbaycanda 1990-cı ildə fəaliyyətə başlamışdır. Şirkət SOCAR-la yanaşı, BP, TOTAL, Equinor, eləcə də SOCAR-ın “Caspian Drilling Company” şirkətləri ilə əməkdaşlıq edir. Azərbaycanda “Baker Hughes, a GE company” şirkətinin 4 məhsulundan - Neft Xidmətləri (OFC), Neft Avadanlıqları (OFE), Turbo Maşın və Proses Həlli (DS), Ölçmə və Nəzarət (M&C) və Rəqəmli məhsullarından istifadə olunur.

Hazırda BHGE dünyada neft və qaz sektorunda avadanlıq, xidmət və rəqəmsal həlləri bir araya gətirən şirkət kimi fəaliyyət göstərir. Şirkət öz müştərilərinə karbohidrogenləri daha səmərəli, məhsuldar və təhlükəsiz şəkildə, ətraf mühit daha çox qayğı göstərməklə nəql etmək və təmizləmək sahəsində yardım edir.

# KİV rəhbərlərinin Moskva şəhərinə səfəri davam edir









**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir. Nümayəndə heyətinin səfər çərçivəsində Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşləri keçirilir.**

Növbəti görüş Ümumrusiya Dövlət Teleradio Şirkətində keçirilib. Heyət üzvlərini Şirkətin xarici əlaqələr departamentinin rəhbəri Pyotr Fyodorov və onun müavini Aleksey Perevoşçikov qarşılayıblar. KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb.

Pyotr Fyodorov qonaqları salamlayaraq, Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Nümayəndə heyəti üzvləri Rusiyanın Dövlət Teleradio Şirkətinin xəbərlərində Azərbaycan barədə informasiyaların və ayrı-ayrı proqramlarında Azərbaycan barədə müzakirələrin daha effektiv olması üçün təkliflərini səsləndiriblər. Pyotr Fyodorov təklifləri qəbul etdiyini bildirib. Razılığa gəlinib ki, Şirkətin təşkil etdiyi proqramlarda Azərbaycan tərəfindən ekspertlərə istinadlar edilsin, onlarla əməkdaşlıq gücləndirilsin.

Nümayəndə heyətinin növbəti görüşü "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyində keçirilib. Azərbaycan KİV təmsilçiləri öncə Agentliyin iş şəraiti ilə tanış olublar. Daha sonra Agentliyin baş direktoru Dmitriy Kiselyovla görüş keçirilib. Kiselyov Azərbaycanın öz müstəqilliyini möhkəmləndirmək yolunda atdığı addımları diqqətlə müşahidə etdiklərini və bu yolda Prezident İlham Əliyevin yürütdüyü siyasəti təqdir etdiklərini diqqətə çatdırıb. O, Azərbaycanın regionda oynadığı rola, Rusiya ilə münasibətlərdə sərgilədiyi mövqeyə diqqət çəkərək, iki ölkənin münasibətlərinin daha da möhkəmlənməsində KİV-lərin də üzərinə mühüm məsuliyyət düşdüyünü, bu baxımdan Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Səfər proqramı davam edir.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF Müşahidə şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rəşad Nəsirov, "AZƏRTAC" İnformasiya Agentliyinin redaksiya müdirinin müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.

# YAP İmişli rayon təşkilatı yaranmasının 26 illiyini qeyd edib

İyulun 3-də YAP İmişli rayon təşkilatının yaranmasının 26 ili tamam olub. Bu münasibətlə rayon təşkilatında geniş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev dəvət olunan bütün qonaqları və tədbir iştirakçılarını salamlayaraq onları rayon təşkilatının yaranmasının 26 illiyi münasibətilə təbrik edib.

Səfa Ağayev qeyd edib ki, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası təsis edildi. Qısa bir zamanda respublikanın bütün ərazilərində bu partiyanın yerli təşkilatları yarandı və ulu öndər Heydər Əliyevə sədaqətli olan, onun ideyalarını dəstəkləyənlər partiya sıralarına daxil oldular. 1993-cü il iyulun 3-də isə İmişli rayonunda Yeni Azərbaycan Partiyasının rayon təşkilatı təsis edildi. Rayonumuzda o dövrün ən nüfuzlu ziyalıları, zəhmət adamları rayon təşkilatının sıralarına daxil oldular. Bu gün YAP İmişli rayon təşkilatı 8680 nəfər üzvü özündə birləşdirən 86 ərazi ilk partiya təşkilatından ibarətdir. Partiya üzvlərindən 2891 nəfərini gənclər, 2683 nəfərini qadınlar təşkil edir.





Tədbirdə Şura üzvü Həsən Hüseynov çıxış edərək bildirib ki, YAP ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi davamı kimi ölkəmizin ağır iqtisadi-siyasi böhran keçirdiyi bir zamanda yaranmaqla dövlətimizin üzləşə biləcəyi ən ciddi təhlükələrə sipər oldu. Bugünkü müasir Azərbaycan məhz Ulu Öndərin və onun silahdaşlarının gərgin siyasi fəaliyyətinin məhsuludur. Ümummilli lider Heydər Əliyevin ölkəmiz naminə müdrikcəsinə atdığı bütün addımlar bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə və daha modern və təkmil şəkildə davam etdirilir.

Tədbirdə YAP İmişli rayon təşkilatının Şura üzvü Şahsuvar Əmrahov və Şakir Məmmədov çıxış edərək bildiriblər ki, dağılmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətinin xilasında Ulu Öndərin rolu əvəzsizdir.

Qadınlar Şurasının sədri Validə Zülfüqarova və Gənclər Birliyinin sədri Rüfət Muradov da çıxışlarında YAP-ın yarandığı dövrə, partiyanın rəhbərliyi ilə ölkəmizdə əldə edilən uğurlara, keçirilən seçkilərdə daim qələbələr qazanmasına geniş yer veriblər. Bildiriblər ki, YAP İmişli rayon təşkilatı gənclərin hərtərəfli inkişaf etdirilməsi ilə yanaşı, onların siyasi fəallıqlarının artırılması istiqamətində də müxtəlif təşkilatlarla sıx əlaqə yaratmış və bu sahədə məqsədyönlü işlər aparılmışdır.

**Elçin Zaman,**
***"İki sahil"***

# Nigeriyalı gənclər Bakı Ali Neft Məktəbində təhsil alacaqlar

**Bakı Ali Neft Məktəbinin (BANM) BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNİTAR) ilə təhsil sahəsində əməkdaşlığı nəticəsində yeddi nigeriyalı gənc 2019-2023-cü tədris illəri müddətində BANM-də "Neft-qaz mühəndisliyi" ixtisası üzrə bakalavr təhsili alacaq. Tələbələrin təhsili "Nigeriyanın neft və qaz sənayesində kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində BMT-nin ayırdığı təqaüdlər hesabına həyata keçirilir.**




Bu haqda BANM-in rektoru Elmar Qasımovun BMT-nin Təlim və Tədqiqat İnstitutunun icraçı direktoru, BMT-nin Baş katibinin müavini Nixil Set və Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov ilə görüşü zamanı müzakirə olunub.

Nixil Set BANM-lə əməkdaşlıqdan məmnun olduğunu, BANM-in mühəndislik təhsili sahəsində qabaqcıl olduğunu bildirib. O qeyd edib ki, BANM-in mühəndislik sahəsindəki keyfiyyətli təhsili, yüksək səviyyəli professor-müəllim heyəti, xarici şirkətlərdəki istehsalat təcrübələri və müxtəlif təcrübə proqramları nigeriyalı tələbələrin peşəkar mütəxəssis kimi formalaşmasında önəmli rol oynayacaq. Daha sonra Nixil Set Keniya və Tanzaniya kimi neftqazla zəngin ölkələrə diqqəti çəkərək həmin ölkələrdən olan gənclərin BANM-də təhsil alması təşəbbüsü ilə çıxış edib və təhsil perspektivlərini ali məktəbin kollektivi ilə müzakirə edib.

Təşəbbüsü yüksək qiymətləndirən rektor Elmar Qasımov, dövlətin BMT-nin müxtəlif sosial layihələrini dəstəklədiyini bildirərək bu istiqamətdə əməkdaşlığa davam etməyə hazır olduğunu bildirib. Rektor neft-qaz sahəsində Heriot-Watt Universitetinin tədris proqramlarını tətbiq edən BANM-in burada təhsil alan tələbələri sektorun aparıcı şirkətlərində yüksək istehsalat təcrübəsi ilə də təmin etdiyini vurğulayıb. Ali məktəbin kampusunda yaşayış yerlərinin və idman-sağlamlıq kompleksinin xarici tələbələr üçün daha əlverişli şərait vəd etdiyini bildirən rektor bugünkü dünya standartlarına cavab verən BANM-in dünyanın istənilən ölkəsindən tələbələri qəbul etməyə hazır olduğunu deyib.

Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov isə layihənin BANM-in timsalında həm Azərbaycan üçün, eyni zamanda iştirakçı ölkələr də daxil olmaqla BMT-nin Təlim və Tədqiqat İnstitutu üçün böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Eyni zamanda o, Azərbaycanın gələcəkdə təhsil sahəsində xarici tələbələr üçün təqaüdlərin artırılması ideyasına diqqət çəkərək bunun strateji cəhətdən ölkə üçün vacibliyini vurğulayıb.

Daha sonra proqramın detallarını müzakirə edən tərəflər arasında ümumi razılıq əldə edilib.

Görüşün sonunda qonaqlarla xatirə fotosu çəkilib.

Nigeriyalı tələbələrin təhsili BANM-in BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNİTAR) ilə imzaladığı Memorandum əsasında həyata keçirilir. Memorandumun əsas məqsədi Nigeriyadan tələbələrin Azərbaycanda "Neft-qaz mühəndisliyi" ixtisası üzrə təhsil alması və Nigeriyanın neft sektoru üçün yararlı mütəxəssis kimi yetişdirilməsini təmin etməkdən ibarətdir. Anlaşma memorandumunun şərtlərinə əsasən BANM və UNITAR arasında eyni zamanda görüşlərin və seminarların təşkil olunması, birgə layihələrin reallaşdırılması, qarşılıqlı maraq dairəsində olan sahələrin birgə öyrənilməsi, mütəxəssislərin təmin olunması və hər iki tərəfin razılığı ilə nəzərdə tutulmuş digər fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

**Zamin Məmmədov, "İki sahil"**

# Neftə aid nələri bilirik?




Xam neftin tərkibinə təxminən 1000 komponent daxildir.

Bir damcı neft 25 litr içməli suyu yararsız hala sala bilər.

Hər 1 barrel çıxarılan neftin ancaq yarısı benzinə çevrilir, qalan yarısı isə bir çox müxtəlif məhsulların istehsalında istifadə olunur.

Yaxın keçmişdə benzinin qiyməti çox ucuz olub, çünki o yararsız məhsul hesab edilirdi.

Təxminən 150 il bundan əvvəl benzin neftin işlənməsindən alınan ən yararsız məhsul sayılırdı. O zamanlar neftayırma əsasən kerosinin əldə olunmasına xidmət edirdi. Benzin isə tullantı hesab edilir, ən yaxşı halda ləkə əleyhinə maddə kimi məişətdə istifadə olunurdu. Bir çox neftayırma şirkətləri benzin satılmadığından onu yararsız bir maddə kimi çaya axıdırdılar.

İlk daxili yanma mühərrikləri benzin ilə işləmirdi (müxtəlif yanacaq məhsulları istifadə edilirdi, əsasən bu məqsədlə kastor yağı ilə spirt qarışığından istifadə olunurdu). Lakin sonradan benzinin ucuz olduğunu görən ixtiraçı dizaynerlər hazırladıqları mühərrikləri bu yanacağa yönəltdilər. Hazırda neftin qiyməti yalnız benzin və ya dizelin qiyməti ilə deyil, xüsusilə ərzaq məhsullarının qiymətləri ilə müəyyən edilir, çünki onun dəyəri malların nəqlindən və digər amillərin təsirindən təsirlənir.

"Neft" sözünün necə yaranması maraqlı olsa da, hələ ki bu barədə dəqiq məlumat yoxdur. Bu istiqamətdə bir neçə versiya mövcuddur. Bəzi mənbələrdə "neft" sözünün farslara qədim semitlərdən keçdiyi güman edilir. Sözdə "npt" feil kökünün olmasından açıq-aydın görünür ki, bu da semit dilindən tərcümədə "boşaltmaq" kimi tərcümə edilir.

Digər bir mənbədə isə "neft" sözünün akkadların dilindən gəldiyi, həmin dildə "yanmaq" mənası daşıdığı bildirilir. Bəzi mənbələr fars dilindəki "naft" sözündən alındığını, "maye məhsul" anlamına gəldiyini iddia edirlər.

Çində hələ 347-ci ildə bu ölkədə ilk neft quyusu qazıldığı zaman oradan çıxan məhsulu "şiyou" adlandırmışdılar. Tərcümədə bu söz "dağ yağı" mənasını verir. Çində neftə indiyədək də "şiyou" deyilir.

İngilislər isə xam nefti "petroleum" adlandırırlar. Bu söz yunan sözü "petra" (dağ) ilə, latın sözü "oleum" (yağ) sözünün birləşməsindən yaranıb.

Qeyri-dəqiq məlumatlardan biri də neftin nə vaxtsa ölmüş dinazavrların qalıqlarından yaranması ilə bağlıdır. Bu məlumat da həqiqətlə uyğunlaşmır.

Hazırda dünya elmi cəmiyyəti neftin formalaşması üçün əsas "xammal"ın dünya okeanının sahil hissəsində yaşayan fitoplankton olduğunu hesab edir.

Neft demək olar ki, insan sivilizasiyası yarandığı gündən bəri istifadə olunur. Qədim Babilistanda bitumdan tikintidə geniş istifadə olunurdu. Yol tikintisində hudrondan istifadəyə isə ilk dəfə VIII əsrdə Bağdadda başlanıldı. Qədim Misirdə işıqlandırıcı lampalarda yanacaq kimi yüngül tərkibli neftdən istifadə olunurdu.

**Könül Əliyeva, "İki sahil"**

# Ağsunun 5 kəndində "mavi yanacaq" sevinci

***SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması, həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən mavi yanacaqla təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər 2019-cu ildə də davam etdirilməkdədir.***



İyulun 3-də Ağsu rayonunun Zarqava, Qırlar, Quzay, Kövlüc və Sanqalan yaşayış məntəqələrinə ilk dəfə təbii qazın verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub.

Bu münasibətlə keçirilən tədbirdə rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Bildirilmişdir ki, 135 fərdi evdən ibarət olan kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 24 min 233 metr müxtəlif diametrli metal və polietilen borularla daşıyıcı, paylayıcı, eləcə də məhəllədaxili qaz xətləri çəkilmiş, mənzillərə sayğac və fərdi tənzimləyici quraşdırılmışdır.

Qeyd olunan kəndlərə təbii qazın verilməsi əhalinin həyat şəraitinin yaxşılaşması ilə yanaşı, ekologiyanın qorunmasına xidmət edəcək.

Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında "bir pilləli" tənzimləmə sistemi tətbiq edilmişdir ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

Tədbirdə çıxış edən kənd sakinləri, yaşayış məntəqələrinə təbii qazın verilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Hazırda Ağsu rayonunun Yenikənd və Kəndaxan kəndlərinin qazlaşdırılması istiqamətində işlər yekunlaşdırılıb və istismara qəbul mərhələsindədir. Tezliklə həmin yaşayış məntəqələri də təbii qazla təmin olunacaq.

# Ən böyük neft yatağı STP-nin kabel məhsulları ilə işıqlanacaq




Azərbaycanın ən böyük kabel ixracatçısı olan Sumqayıt Texnologiyalar Parkı (STP) Qazaxıstanın "Tengiz" yatağının elektrik xətlərinin qurulması üçün nəzərdə tutulmuş kabel məhsullarının ixracını həyata keçirib. "Tengiz" yatağı dünyada son dövrlərdə kəşf edilmiş ən iri neft yatağıdır.

İyun ayının 4-ü və 10-u "Tengiz" yatağının istismarını həyata keçirən "Tengizchevronoil" şirkətinin layihəsinin kabel ilə təchiz olunması məqsədilə Texnopark 2 müqavilə imzalayıb. Müqavilələrə əsasən STP neft yatağı üçün ümumi dəyəri 329 min ABŞ dolları olan 55 tona yaxın mis damarlı alçaq gərginlikli kabellərin ixracını həyata keçirməli idi. İxracı nəzərdə tutulmuş məhsulların bir qismi qısa zamanda istehsal olunaraq iyunun 24-ü göndərilib. Məhsulların digər qismi isə yaxın günlərdə Qazaxıstana ixrac ediləcək. "Tengiz" neft yatağı üçün qarşıdan gələn aylarda yeni kabel satışı müqavilələrinin bağlanması da nəzərdə tutulur.

Ümumiyyətlə, 2019-cu il ərzində, STP-nin kabel məhsullarının satışı həm yerli, həm də beynəlxalq bazarlarda önəmli dərəcədə artıb. Belə ki, 2019-cu ilin mart-aprel ayında STP respublika tarixinin ən böyük kabel ixracını həyata keçirib.

Qeyd edək ki, Sumqayıt Texnologiyalar Parkı regionda texnoparkların yaradılmasında pioner olmaqla, müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Park 2009-cu il dekabr ayının 22-də dövlət başçısı İlham Əliyevin iştirakı ilə istismara verilib.

Hazırda STP-də mövcud olan 13 zavodda 30-dan çox istehsal sahəsi fəaliyyət göstərir. Zavodlar kompleksi neft və qaz, tikinti, energetika və kənd təsərrüfatı sənayesi üçün geniş çeşiddə məhsullar istehsal edir. Kabel, Polimer boru, elektrik avadanlıqları, metal konstruksiyalar, qəliblər, press formalar və ştamplar bu məhsullardandır.

**Orxan Vahidoğlu, "İki sahil"**

# TAP boru kəmərinin genişləndirilməsi imkanları araşdırılır

**Azərbaycan təbii qazını Avropaya nəql edəcək "Trans-Adriatik" (TAP) boru kəməri üzrə bazar sınaqlarına (market test) başlanılıb.**

TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

TAP-ın icraçı direktoru Luca Schieppati deyib: "TAP 2020-ci ildən etibarən ilkin olaraq ildə təxminən 10 milyard kubmetr təbii qazı nəql etməyi planlaşdırır və Avropaya yeni bir qaz mənbəyi gətirir. Buna baxmayaraq, TAP öz ötürücülük gücünü ildə 20 milyard kubmetrə çatdırmaq imkanına malikdir. Hazırda layihə üzrə işlərin 88 faizdən çoxunun icra olunduğunu nəzərə alaraq boru kəmərinin Avropaya qaz nəqli üçün gələcək tələbata uyğun olaraq genişləndirilməsini təmin etmək niyyətindəyik. Bu, əlavə qaz ehtiyatlarının Avropa bazarına çatdırılması üçün böyük fürsətdir".

Qeyd edək ki, TAP Avropa Komissiyasının Ümumi Maraq Layihələrinin (PCI) siyahısına daxil edilib.

Layihə qrafikə uyğun davam edir. Hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa edilir. Layihə üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88 faizdən çoxu icra olunub.

TAP-ın inşası çərçivəsində Albaniya sularında dəniz borularının tikintisi başa çatıb. Boru kəmərinin dəniz hissəsinin mühəndislik, təchizat, tikinti və quraşdırma (EPCI) üzrə podratçısı İtaliyanın "Saipem" şirkəti bu əməliyyatlar üçün "Castoro 10" gəmisindən istifadə edib. Polad borular sahilə 1,4 kilometr məsafədəki gəmidə qaynaqlanıb. Daha sonra sınaqlar aparılıb və borular dənizin dibinə endirilib. 1,8 kilometrlik ilk borular Fier (Albaniya) yaxınlığında sahilə çıxıb. Uzunluğu 139 metr və eni 36 metr olan "Castoro 10" gəmisi boruları Albaniyanın dayaz sularında döşəyib, bunun ardından fiber-optik kabelin çəkilişi də həyata keçirilib.



TAP ötən ilin oktyabrında boru kəmərinin dəniz hissəsinin tikintisi işlərinə başlamışdı. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək. Boru kəmərinin Adriatik dənizindən keçəcək hissəsində ümumi tikinti işlərinin 20 faizdən çoxu icra olunub.

Boru kəmərinin Yunanıstandan keçən 550 kilometrlik hissəsində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bu ölkədə boruların 547 kilometri qaynaq edilib. 535 kilometr boru torpağa basdırılıb. Boru kəmərinin Albaniyadan keçən 215 kilometrlik hissəsində də ərazi təmizlənib və qiymətləndirilib. Boruların 214 kilometri qaynaqlanıb və 177 kilometr ərazi isə tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya marşrutunda boruların 98 faizi torpağa basdırılıb.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisinin 85 faizdən çoxu tamamlanıb. Kipoidə boruların tədarükü tamamlanıb və boruların 90 faizdən çoxu qurulub. Suyun dayanıqlılıq sınaqları isə qrafik üzrə irəliləyir. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal edilib.

İtaliyada mikrotunelin tikintisi üzrə hazırlıq işləri davam etməkdədir. Hazırda boru kəmərinin qəbulu terminalında, mikrotunel sahəsində və dənizə çıxış hissəsində işlər görülür.

# *Deputat:* Azərbaycan dünyaya multikulturalizm və tolerantlıq nümunəsi təqdim edir

Artıq xəbər verildiyi kimi, iyunun 30-da Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva da iştirak edib.

Belə ki, Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək bu sessiyanın yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalayıb.

Milli Məclisin deputatı Asim Mollazadə qəzetimizə açıqlamasında sözügedən beynəlxalq tədbirin Bakıda keçirilməsinin əhəmiyyəti haqqında danışaraq söylədi ki, ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib: "Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda hər iki ildən bir bu təşkilatın rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına ev sahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir".

A.Mollazadə qeyd etdi ki, bu gün müstəqil Azərbaycan müxtəlif sahələri əhatə edən beynəlxalq tədbirlərin, festivalların, qlobal forumların, konfransların, idman yarışlarının keçirildiyi unikal məkana çevrilib: "Beynəlxalq tədbirlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi heç də təsadüfi deyil. Bütün bunların təməlində cənab Prezident İlham Əliyevin yürütdüyü müdrik siyasət nəticəsində Azərbaycanın dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında qazandığı böyük nüfuz, dünyada cərəyan edən hadisələr fonunda ölkəmizdə hökm sürən sabitlik, əmin-amanlıq dayanır. Azərbaycan sivilizasiyaların birgə yaşayışı işinə mühüm töhfələr verir, multikulturalizm, tolerantlıq nümunəsi təqdim edir. Məhz bütün bunlara görə dövlət başçıları, dünyanın düşünən beyinləri mütəmadi olaraq Bakıda toplaşaraq bəşəriyyətin qarşısında duran qlobal problemlərlə bağlı fikir mübadiləsi aparırlar".



**Cavid Əkbərov,**
***"İki sahil"***



# Küçə demokratiyasından saray antidemokratiyasına doğru

**Elçin Zaman**

### *Paşinyanın reytinqi niyə sürətlə düşür?*

Ötən yazılarımızda Ermənistanın baş naziri Nikol Paşinyanın avantürist addımları və populist çıxışları ilə bağlı yazmışdıq. Xüsusilə qeyd etmişdik ki, onun oğlunun Azərbaycanın işğal altındakı torpaqlarında hərbi xidmət keçməsi erməni ictimaiyyətinə hesablansa da, beynəlxalq ictimaiyyət üçün bu, qəbuledilməzdir və beynəlxalq hüquqda presedent yaradır. Axı, Azərbaycan tərəfinin iddiasının əksinə olaraq Paşinyan bildirir ki, Qarabağdakı hərbi qüvvələr guya qondarma "Dağlıq Qarabağ Respublikası"na aiddir.

Eyni zamanda getdikcə o da məlum olur ki, Nikol Paşinyan küçə mitinqlərində Ermənistana demokratiya vəd etsə də, ermənilər reallıqda bunun əksini görürlər. Xüsusilə son bir neçə aydır ki, Paşinyan ona müxalif olan qüvvələrə qarşı repressiv siyasətini davam etdirir. Belə ki, bir müddət öncə o, müxalifət mətbuatını yerləşdiyi binadan çıxardı, daha sonra onun siyasətini tənqid edənlərə qarşı ciddi şəkildə hücuma keçdi.

Ən başlıcası isə Nikol Paşinyan özünə ciddi rəqib gördüyü qüvvələri ya həbsə atdırmağa başladı, ya da onların maliyyə qaynaqlarını bağlatdırmağa cəhd etdi. Belə ki, eks-prezident Robert Koçaryana yaxınlığı ilə seçilən "Adekvat" partiyasının rəhbəri Artur Danielyan Paşinyanın ünvanına səsləndirdiyi təhdidlərlə əlaqədar polisə gətirilib və ona orada ciddi təzyiqlər edilib.

O da məlumdur ki, "Adekvat" partiyası Ermənistanda Rusiyayönümlü siyasi təşkilat kimi xarakterizə olunur və Paşinyanın da iddia etdiyi kimi guya Rusiyadan maliyyələşir. Xatırladaq ki, "Adekvat" üzvləri dəfələrlə Koçaryanın həbsi, eləcə də Paşinyanın tərəfdarlarının məhkəmə binalarını tutmasına etiraz olaraq aksiya təşkil etməklə gündəmə gəlmişdi.

Bu arada erməni mətbuatı yazır ki, Koçaryanın yenidən həbsi onun reytinqini bir az da yüksəldib. Beləliklə də Paşinyanın siyasi gedişləri, Koçaryan əleyhinə apardığı qara piar kampaniyası əks effekt verərək onun siyasi fiqur kimi dirçəlməsinə səbəb olub.

Əslində Koçaryanın reytinqinin yüksəlməsinə səbəb isə Nikol Paşinyanın özünü siyasətçi kimi deyil, daha çox artist kimi aparmasıdır. Yalan vədlər, sərsəm açıqlamalar, düşük iddialar onun siyasi reytinqini sürətlə sıfıra endirir.

Nikol Paşinyanın siyasi nüfuzunun erməni cəmiyyətində və erməni diasporu arasında aşağı düşməsinin bariz nümunəsi isə hakim "Vətəndaş müqaviləsi" partiyasından olan namizəd Qriqor Qulyanın Abovyan meri uğrunda keçirilən seçkilərdə hazırkı mer Vaaqn Gevorkyana uduzmasıdır.

Bu gün onun rəhbərlik etdiyi Ermənistanda sosial və iqtisadi vəziyyət durmadan çətinləşir. Nikol Paşinyan isə ölkə büdcəsini doldurmaq üçün əcaib variantlara əl atır. Boş və talan edilən ölkədə baş nazir çıxış yolunu Serj Sarkisyan dövründə çalışmış məmurların var-dövlətini ələ keçirməkdə görür.

Belə ki, ötən aylarda Ermənistanın keçmiş maliyyə naziri Qaqik Xaçatryan və kənd təsərrüfatı naziri Serqo Karapetyan dövlətə ziyan vurmaqda ittiham olunublar və barələrində cinayət işi açılıb. Onlar dövlət subsidiyası ilə fermerlərə güzəştli qiymətlərlə verilən gübrələr bağlı maxinasiyada ittiham ediliblər. Nəticədə keçmiş maliyyə naziri Qaqik Xaçatryan öz yerinə və nazir həmkarı Serqo Karapetyanın yerinə büdcəyə 2 milyon dollardan artıq vəsaiti geri qaytarıb.

Ermənistanın dövlət büdcəsinin zəifliyi bir daha özünü onda göstərir ki, Paşinyan hökuməti Dağlıq Qarabağ separatçılarının maliyyə yardımı barədə xahişlərini rədd edib. Bu sensasion məlumatı erməni mediası yayıb. Məlumatda, həmçinin bildirilir ki, maliyyə yardımı barədə xahişlər artıq üçüncü aydır Ermənistan hökuməti tərəfindən rədd edilir.

Bu arada Ovik Karapetyan adlı bir jurnalist isə Nikol Paşinyanı sərt tənqid edərək Ermənistanın Azərbaycana iqtisadi cəhətdən həmişə açıq şəkildə uduzduğunu yazıb: "Ermənistanda hökumətin nəzarətində olan medianın Azərbaycanla bağlı yazdıqları reallığı əks etdirmir. Orada problemli kreditlərlə bağlı verilən fərman, minimum əməkhaqlarının bir ildə iki dəfə artırılması birbaşa və dolayısı ilə bütün insanlara təsir edir. Bu da insanlarda dövlətə olan güvəni daha da möhkəmləndirir. Niyə bizdə də belə nümunələr yoxdur? Niyə bizdə də vətəndaş hər zaman dövlətinin onun yanında olduğunu hiss etmir? Ona görə də ölkəni tərk edənlərin sayı durmadan artır. Hökumət bu barədə fikirləşməlidir".

Qeyd edək ki, onun bu yazısı erməni ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılanıb və böyük rezonans doğurub. Paşinyan isə bu məqaləyə görə jurnalistlərə təzyiqlərini artırıb.

*Qarabağ qazisi:*

## Onların yüksəldiyi zirvəyə ucala bilmədim

**Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini yaşayır. Aprel qələbəsində xidmətləri olanlardan biri də Üzeyir Nəcəfovdur.**



İkinci qrup Qarabağ müharibəsi əlili Üzeyir Nəcəfovun dediyinə görə, hələ uşaqlıq illərindən hərbi sənətinə marağı olub: "Ermənı daşnaklarının torpaqlarımızı işğal etmələrini, minlərlə soydaşımızı yurd-yuvalarından didərgin salmalarını, qız-gəlinlərimizi əsir götürmələrini eşitdikdən sonra hərbçi olmağı və düşməndən intiqam almağı qarşıma məqsəd qoydum. Lakin ailənin tək oğlu olduğum üçün valideynlərim bu seçimimə qarşı çıxdılar. Bu səbəbdən hərbi sahədə təhsil ala bilmədim. Amma yenə inadımdan dönmədim. Belə ki, həqiqi hərbi xidmətdən sonra snayper kursunda bu silahın incəliklərinə yiyələndim. Kursu başa vurandan sonra ön xətt briqadasının snayper taqımında xidmətimi davam etdirdim və bir neçə tapşırığı uğurla yerinə yetirdim. Daha sonra məni briqada tərkibində yeni təşkil edilmiş xüsusi təyinatlı kəşfiyyat qrupuna kəşfiyyatçı-snayper kimi qəbul etdilər".

Aprel zəfərindən söz açan müsahibimiz bildirdi ki, həmin döyüşlər bizim milli ruhumuzu silkələdi: "Üstəlik, erməni daşnaklarına, eləcə də onların havadarlarına Milli Ordumuzun qüdrətini göstərdi. Şəxsən mən Lələtəpə istiqamətində gedən döyüşlərdə 7 düşmən postunun ələ keçirilməsində iştirak etdim. Düşmənin necə qaçdığının, bizdən necə imdad dilədiyinin şahidi oldum. Bununla da demək olar ki, qismən də olsa işğalçılardan intiqamımı aldım".

Füzulinin Kərimbəyli kəndində boya-başa çatmış Üzeyir Nəcəfov vurğuladı ki, ordumuzun müasir silahlarla tam təmin olunması gerçəklikdir: "Amma bir məsələni unutmayaq ki, müasir döyüşlərdə qələbə qazanmaq üçün inam və ruh da əsas rol oynayır. Belə bir inamı, ruhu isə bizə bizimlə birgə döyüşlərə atılmış komandirlərimiz verirdilər. Məsələn, mənim hərbi hissə komandirim, mayor Şükür Həmidov (hazırda o, polkovnik-leytenant rütbəsindədir) kimi... Elə bu kimi xidmətlərinə görə də o, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**"Döyüş meydanından çıxmaq istəmirdim"**

Həmsöhbətimiz yaralanmasını belə xatırladı: "Hava işıqlaşana yaxın biz Lələtəpənin qarşısında yerləşən və hündürlükdə heç də ondan geri qalmayan bir təpəyə doğru hərəkət etdik. Bu zaman mühərriki işlək vəziyyətdə olan UAZ markalı avtomobillə rastlaşdıq və onu atəşə tutduq. Belə qənaətə gəldik ki, təpədəkilər komandir heyətindəndir. Həmin təpəyə yaxınlaşarkən ermənilər təpənin içərisində inşa etdikləri kazarmadan bizə atəş açdılar. Əvvəlcə elə zənn etdik ki, orada 3-5 nəfər var. Amma sonradan məlum oldu ki, orada 9 nəfər gizlənibmiş. Biz həmin kazarmanı qumbaraatanla vurduq. Bir müddət araya səssizlik çökdü. Öndə olduğum üçün mən və bir də taqım komandirim içəri girməyə cəhd etdik. Bu zaman bizə məlum olmayan yeraltı keçidlə qaçmaq istəyən polkovnikin yoluna çıxdım. Sən demə, o məni nişan alıbmış. Mən onu görən kimi özümü itirmədən kənara atıldım. Amma düşmənin açdığı atəşlərdən tam yayına bilmədim. Nəticədə 4 güllə yarası aldım. Taqım komandirim isə onu cəhənnəmə vasil elədi. Uzun sözün qısası... Yoldaşlarım məni çətinliklə döyüş meydanından çıxardılar. Sözün düzü, yaralı olmağıma baxmayaraq, döyüş meydanından uzaqlaşmaq istəmirdim. Hətta məni oradan uzaqlaşdıran silahdaşlarıma da bununla bağlı etirazımı bildirdim".

Yeri gəlmişkən qeyd edək ki, Lələtəpə yüksəkliyini fəth edən zabitlərimizdən biri - Silahlı Qüvvələrimizin polkovniki, Milli Qəhrəman Şükür Həmidov müsahibələrinin birində Piriyev qardaşları ilə birgə Üzeyirin də bu mərdliyindən ətraflı söz açıb.

Daha sonra şəhid olmuş silahdaşlarını - Nicat İsgəndərovu, Ruhin Qəhrəmanovu, Elnur Əliyevi, Orxan Həmidovu və digərlərini xatırlayan və onların ruhlarına dualar oxuyan Üzeyir Nəcəfov sanki böyük günah işlədibmiş kimi dedi: "Təəssüf ki, mən onların yüksəldiyi zirvəyə ucala bilmədim". Dediyinə görə, onlar yadına düşəndə səngərlərimizə, əsgərlərimizin yanına üz tutur. O, həmçinin hər zaman, hər an cənab Ali Baş Komandanın verəcəyi döyüş əmrinə hazır olduğunu da bildirdi: "Bu gün Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi daha düşmənin atəşi altında deyil. Kənddə abadlıq işləri görülüb, yeni evlər tikilib. Kənd sakinlərinin doğma yurd-yuvalarına qayıtması təmin olunub. Bu isə o deməkdir ki, növbəti ayaq basacağımız ərazilər Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan... olacaq. O yerlərdə də belə abadlıqların şahidi olacağıq".

**"Oğlumu hazırlayıram"**

Üzeyir Nəcəfov oğlu üçün hərbi forma tikdirib. Dediyinə görə, onu hərbçi-kəşfiyyatçı kimi görmək istəyir: "Çünki bu gün mənim Vətənimin torpaqlarının bir hissəsi hələ də ermənilərin işğalı altındadır. Həmin əraziləri azad etmək üçün isə ürəyində Vətən sevgisi olan əsgər və zabitlərimizə daha çox ehtiyac var. Gənclərimizə isə tövsiyəm belədir: "Vətəni sevsinlər, milli dəyərlərimizə önəm versinlər. Hansı sahədə çalışmalarından asılı olmayaraq, öz peşələrinin biliciləri olsunlar. Dövlətimizin daha da inkişaf etməsinə öz dəyərli töhfələrini versinlər. Zənnimcə, belə olsa, istədiyimiz hər bir şeyə nail olacağıq".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Müasir Azərbaycan dövlətinin qurucusu





**Dünən Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatı aparatında ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsinin 50 illik yubileyi münasibətilə "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda tədbir keçirilib.**

14 iyulun Azərbaycan tarixində çox əlamətdar gün olduğunu qeyd edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, 1969-cu ildə ulu öndər Heydər Əliyevin rəhbərliyə gəlməsi ölkənin inkişafında, onun uzun müddət yığılıb qalmış problemlərinin həllində və ən əsası dövlətimizin dünya səviyyəsinə çıxmasında başlanğıc nöqtəsi oldu: "Dahi lider Heydər Əliyevin Azərbaycanın problemlərini dərindən bilməsi, yüksək vətənpərvərlik və yüksək təşkilatçılıq qabiliyyəti cəmiyyətin resurslarını problemlərin həllinə yönəltməyə imkan verdi. Bu dövrdə Azərbaycan iqtisadiyyatında keyfiyyət dəyişiklikləri baş verdi. Yenilərinin tikintisi ilə paralel olaraq mövcud müəssisələrin yenidən qurulması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, infrastrukturların yenilənməsi qısa müddət ərzində böyük nailiyyətlərin əldə olunmasına yol açdı. 1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə ölkədə 250-dən çox yeni müəssisə yaradıldı ki, bu, milyonlarla yeni iş yerləri demək idi. Bir neçə ali və onlarla ixtisas məktəbləri açıldı. Həmin dövrdə Azərbaycanda mənzil fondu faktiki olaraq 2 dəfə artdı. Azərbaycan nəinki SSRİ, hətta dünya miqyasında tanınmağa başladı".

Sonra YAP Masallı şəhər ərazi ilk partiya təşkilatının sədri Azər Baxşıyev, Qadınlar Şurasının sədri Gülşən Xəlilova və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycanın güclü, qüdrətli dövlətə çevrildiyini diqqətə çatdırıblar. Qeyd edilib ki, bu gün Ümummilli Liderimizin əsasını qoyduğu inkişaf siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan dünya miqyasında mütəmadi olaraq tərəqqi edən nüfuzlu dövlət kimi tanınır.

**Taleh Bağırov,**
***"İki sahil"***

## "Kölgəsində" sərinlədiyimiz kondisionerlərdən necə qorunmalı?

**Mövsümün tələb etdiyi əşyalar sırasında lazımlı yeri olan kondisionerlərin faydaları ilə yanaşı, ziyanlı tərəfləri də var. Qızmar yay günlərində insanların həm dostu, həm də təhlükəsi, həm də təsəllisi olan bu havalandırma sisteminin həddindən artıq istifadə olunması orqanizmə mənfi təsirlər göstərir.**



Havanın temperaturu qalxdıqca evdə, işdə, avtomobildə kondisionerdən istifadə olunması günün əsas hissəsini onun təsiri altında keçirməyimizə səbəb olur. Belə ki, kondisionerlərin yaratdığı təhlükə o qədər güclü olur ki, dərhal nəticəsi üzə çıxır. Törətdiyi ziyana isə xüsusilə də immuniteti aşağı olan orqanizm, əsasən körpələr daha tez "tutulur".

Bəs kondisionerin yaratdığı zərərdən qorunmaq üçün nə etməliyik?

İsti günlərdə məkan daxilində və bayırdakı hava fərqi bədən müqavimətini aşağı salır. Bu da virus infeksiyaların çoxalmasına səbəb olur. Kondisionerlər ilk işə salındıqda, filtrində toplanan bakteriyalar hava ilə birlikdə otağa yayılır. Bütün bunları nəzərə alaraq bilməliyik ki, kondisionerlərin filtrləri vaxtaşırı təmizlənməlidir. Çünki onlar müxtəlif xəstəlik törədicilərini özündə saxlayır. Kondisioner filtrlərinin bakteriyalara qarşı qoruyucu təsiri yüksək olmalıdır.Əks halda uşaqlarda adi soyuqdəymədən tutmuş xüsusi gedişatı ilə fərqlənən pnevmoniyaya (sətəlcəm) qədər problemlər yaradar. Bu mikrob insanı ağciyər, bronxit, rinit kimi infeksiyalara yoluxdurur, qulaq və diş iltihablarına gətirib çıxarır. Bu bakteriya kondisionerlərin filtr sistemlərində uyğun nəm və istilikdə törəyir və buradan da ətrafa yayılır. Xəstəlik insandan insana da yoluxur. Xəstələrdə tipik sətəlcəmdən fərqli olaraq, ağciyərə və tənəffüs sisteminə aid olan şikayətlər ön planda olur. İlk 24-48 saat içində halsızlıq, əzələ ağrıları, şiddətli baş ağrısı və narahatlıq yaranır. Daha sonra yüksək hərarət və ilk iki gün quru öskürək müşahidə edilir. Ürək bulanması, qusma, qarın ağrısı görünə bilər.

Havanı qurutduğuna görə müxtəlif nəmləndiricilərdən istifadə etmək lazımdır, ya da pəncərələri tez-tez açıb ventilyasiya yaratmaq lazımdı. Bayırda 40 dərəcə istilik varsa, evdə birdən-birə temperaturu 18 dərəcəyə salmaq olmaz. Uşaq orqanizmi kəskin temperatur dəyişikliyinə dözmür. Temperatur tədricən evdə 22-24 dərəcə tənzimlənsə yaxşıdı. Ən yüksək sərinlətmə dərəcəsi 18 olmalıdır. Kondisionerdən istifadə edərkən birdən-birə yüksək soyuq dərəcəyə qaldırmaq olmaz, dərəcəni yavaş-yavaş tənzimləmək lazımdır.

Soyuq hava kütlələri birbaşa uşağın çarpayısına və ya bədəninə vurmamalıdır. Südəmər uşaqlarda son dərəcə ehtiyatlı olmaq lazımdır. Uşaqların yataq otağında kondisioner olmasa yaxşıdır. Kondisioner altında, yaxınında və qarşısında xüsusilə tərli halda qalmaq kondisioner vurmasına səbəb ola bilər. Kondisionerin hava vuran yeri insanın üstünə yönəlməməlidir. Həmin hissəni tavana tərəf yönəltmək lazımdır. Kondisioner alarkən onu otağın ölçüsünə uyğunlaşdırmaq lazımdır. Yəni otağın ölçüsü balacadırsa, orada iri həcmli kondisioner quraşdırmaq məsləhət görülmür. Yataq otaqlarında kondisionerdən istifadə edilməməlidir. Həm pəncərəni açıq qoyub, həm də kondisioneri işlətmək ikiqat fəsad yarada bilər.

Kondisionerin təsirindən həm də dərimizi qorumalıyıq. Çünki dərimiz bədənimizin ən zərif hissəsidir. Bunu da nəzərə alaraq, ani hava dəyişməsi ilk növbədə dəriyə təsir edir. İstidən soyuğa, soyuqdan istiyə hava dəyişməsi dəriyə olan zərəri artırır. Nəticədə dəri tez quruyur, qabıq verir və yaxud qızarır. Bu, həm də müxtəlif bakterial xəstəlikləri yarada bilir. Kondisionerin düz altında dayanıb, hava kütlələrini birbaşa dəri üzərinə yönəldirmək isə bütün bu ziyanı daha da artırmış olur. Kondisionerdən nisbətən uzaqda durmaq lazımdır.

Sadalanan məqamlara diqqət yetirməkdə fayda var. Əks halda "kölgəsində"sərinlədiyiniz kondisionerlər yay fəslini xəstə keçirməyinizə səbəb olar.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**"Azneft" İstehsalat Birliyinin struktur təşkilatlarının Neftin miqdarının və keyfiyyət göstəricilərinin ölçmə sistemlərində kalibrləmə (sərfölçənlərin) və servis xidmətinin göstərilməsinin satınalınması məqsədi ilə Açıq Satınalma müsabiqəsi (1100/5, AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 11.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 18.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsi 12 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı: Tələb olunmur***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:**
Baxışov Bahadur İPA və metrologiya şöbəsinin rəis müavini
Telefon nömrəsi: +99 412 521-11-04 (daxili: 11-104)
Elektron ünvan: Bahadur.Bakhishov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 18.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı zavodu

**İsti tablandırılmış polad vərəqlər və bürünc pəstahlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17030-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 15 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər

Lot №1 üzrə 59 manat (ƏDV daxil),
Lot №2 üzrə 118 manat (ƏDV daxil),
Lot №3 üzrə 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944 (AZN)
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 (EUR)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***

* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğdən aşağı

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
**Əlaqələndirici şəxs:** Quliyeva Sona
Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17998
+994 12 521-23-51.
Sona.Guliyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Qaz İxrac" İdarəsi

**Hacıqabul MQKS-nin Hacıqabul KS-də istismarda olan 4 ədəd 280-12-7 markalı mərkəzdənqaçan sıxıcı ilə qaz ötürücü aqreqatlarının CTD-4000-2 (6 kV) sinxron elektrik mühərriklərinin idarəetmə dövrəsində və BTE 315/320 tipli tiristor elektron təsirləndirici şkaflarında təftiş, sınaq-sazlama və illik xidmət işlərinə olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22011XM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət

* İştirak haqqının ödənilməsi barədə bank sənədi;

* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 11.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV ilə birlikdə), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.

**Əlaqələndirici şəxs:**

Elvin Mürsəlli (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22183) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 83
elvin.murselli@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**

*NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı:*

# AZƏRBAYCAN ALYANSIN ETİBARLI TƏRƏFDAŞIDIR



İyulun 3-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı, vitse-admiral Kolin Kilreynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Baş Qərargah rəisi bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfəni qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edən vitse-admiral K.Kilreyn Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda sülhməramlılarımızın göstərdiyi peşəkarlığı yüksək qiymətləndirib.

Görüşdə tərəflər Azərbaycanın və NATO-nun xüsusi təyinatlı qüvvələri arasında gələcək əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

*UNEC ikili diplom proqramlarının sayını artırdı:*

# 6 proqram reallaşdırılacaq





UNEC-də 3 yeni ikili diplom proqramının təqdimatı keçirilib.

Tədbirdə UNEC-in müvafiq struktur rəhbərləri ilə birlikdə Nazirliyinin, Fransanın Azərbaycandakı səfirliyinin nümayəndələri, təhsil üzrə ekspertlər və digər ali təhsil müəssisələrinin əməkdaşları iştirak ediblər.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli Azərbaycan Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətindən danışıb. Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə uyğunlaşdırılmasının və yeni təhsil mühitinin yaradılmasının Dövlət Proqramının əsas hədəflərindən olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə ölkədə həyata keçirilən tədbirlərdən söz açan nazirlik rəsmisi UNEC-in ikili diplom proqramlarına diqqət çəkib. O, UNEC-in ölkənin ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının sayına görə lider olduğunu vurğulayıb.

Fransanın Azərbaycandakı səfirliyinin mədəniyyət müşaviri və Fransa-Azərbaycan İnstitutunun direktoru Johan Schittererin Fransa dövlətinin ikili diplom proqramları istiqamətində məqsədyönlü strategiyasından danışıb, ikili diplom proqramları istiqamətində məqsədyönlü strategiyasından danışıb bildirib. UNEC-in Montpellier Universiteti ilə uğurlu ikili diplom proqramı reallaşdırdığını diqqətə çatdıran səfirlik rəsmisi proqramın əhəmiyyətindən danışıb. O, proqramda iştirak edən UNEC tələbələrinin potensialının çox yüksək olduğunu və ən yaxşı nəticələr göstərdiklərini deyib.

Tədbirdə UNEC-in ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramı reallaşdırması münasibətilə Linkoln Universitetinin rektorunun təbrik videoçarxı nümayiş olunub.

UNEC-in Fransanın iki aparıcı universiteti ilə ikili diplom proqramı reallaşdırdığını bildirən tədris və təlim texnologiyaları üzrə prorektor, dosent Anar Rzayev bu istiqamətdə Fransa səfirliyi tərəfindən UNEC-ə hər zaman dəstək göstərildiyini qeyd edib. A.Rzayev yeni tədris ilindən reallaşdırılacaq 3 yeni ikili diplom proqramı barədə təqdimatla çıxış edib. O, Paris şəhərində yerləşən Fransa və ABŞ-ın birgə təhsil müəssisəsi olan ICD Beynəlxalq Biznes Məktəbi ilə bakalavr, ABŞ-ın Linkoln Universiteti və Fransanın Montpellier Universiteti ilə MBA və magistratura pilləsi üzrə ikili diplom proqramlarının şərtlərini açıqlayıb.

Tədbirdə bildirilib ki, UNEC hazırda London Universiteti London İqtisadiyyat Məktəbi, Fransanın Montpellier Universiteti, İsveçrənin UBİS (Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti) Universiteti ilə ikili diplom proqramları reallaşdırır. Rusiyanın Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə isə ikili diplom proqramı artıq yekun mərhələsindədir. Ötən il Montpellier Universitetindən UNEC-in 5 tələbəsi, bu il isə 13 tələbəsi məzun olub. Magistr pilləsi üzrə İsveçrənin UBİS Universitetindən məzun olan UNEC-in 4 magistrinə diplomlar təqdim olunub.

Tədbirdə iştirakçıların sualları cavablandırılıb.

# Ermənistan: ölülər və əlillər ölkəsi

Uşaqların dünyaya xəstə və ölü gətirilməsi, heyvanların ikibaşlı, üçayaqlı və s. anormal vəziyyətlərdə doğulması Ermənistanda artıq adi hala çevrilib. Bunun səbəbi heç kimi təəccübləndirmir, hamı bilir ki, bu vəziyyəti yaradan "Metsamor" AES-dir. Əhali arasında buna qarşı narazılıqlar baş alıb getsə də hakimiyyətdə olanlar bu məsələyə qətiyyən əhəmiyyət vermirlər.

Uzun illərdir ki, "Metsamor" Atom-Elektrik Stansiyası nəinki Ermənistanı, Cənubi Qafqaz ölkələrini və hətta onlarla qonşu olan dövlətləri də təhlükə altında saxlamaqda davam edir. Beynəlxalq ictimaiyyətin qətiyyətli tələblərinə baxmayaraq Ermənistan istismar müddəti çoxdan başa çatmış AES-i bağlamaq niyyətində deyil. "Ermənistan Atom Elektrik Stansiyası" QSC ilə "RosAtom"un "TVEL" yanacaq şirkəti arasında 2019-2020-ci illər üçün nüvə yanacağının təminatına dair müqavilənin imzalanması da İrəvanın israrla bütün bölgəni yeni Çernobıl təhlükəsi ilə üz-üzə qoymaq niyyətində olduğunu göstərir.

"Metsamor" AES iki blokdan ibarətdir. Bloklardan birincisi 1976-cı, ikincisi isə 1979-cu ildə istifadəyə verilib. AES-in təhlükəli tərəflərindən biri onun hazırda dünyada ən köhnə hesab edilən texnologiya ilə tikilməsidir. Dünyanın imtina etdiyi bu texnologiyadan "Metsamor" AES-in tikintisində istifadə edilib. Bu texnologiya baş verə biləcək qəzalara qarşı son dərəcədə zəif və müdafiəsizdir.

SSRİ dövründə inşa edilmiş "Metsamor"da "VVER", "PBMK", "EGP" və "BN" olmaqla dörd moduldan istifadə edilir. Halbuki təxminən 40 illik təcrübə nəticəsində "VVER" reaktorlarının çox etibarsız olduğu müəyyən edilib. Ən çox qəzalar da "VVER" reaktoru ilə işləyən stansiyalarda baş verib. "Metsamor" da məhz "VVER" modeli ilə fəaliyyət göstərir.

Təhlükəsizlik sistemi yox dərəcəsində olan bu modeldən istifadə edilməsi "Metsamor"un Çernobıldan da təhlükəli olduğuna dəlalət edir. Mütəxəssislər bildirirlər ki, bu modeldə radioaktiv maddə sızıntısının qarşısını alacaq polad qübbə yoxdur. Bununla yanaşı, stansiyanın müasir təhlükəsizlik və texniki təchizatının olmaması, reaktorun soyudulması üçün istifadə edilən suyun azlığı və soyutma sisteminin köhnəlmiş olan layihə ilə tikilməsi də regionun ekoloji vəziyyəti üçün ciddi təhlükələri ortaya çıxarır.

"Metsamor"un ikinci bloku isə nüvə fəlakətlərinin qarşısını ala biləcək texniki təchizatdan və təhlükəsizlik sistemindən məhrumdur.

AES-in ciddi təhlükə mənbəyi olmasını əsaslandıran səbəblərdən biri də onun Rixter cədvəlinə görə 9 bal gücündəki seysmoaktiv zəlzələ zonasında yerləşməsidir. Nüvə enerjisi üzrə beynəlxalq standartlar 5 baldan çox zəlzələ ehtimalı olan ərazilərdə AES-lərin tikilməsini qadağan edir. İndiyə qədər "Metsamor" AES-də 5 böyük, 150-dən çox kiçik qəzalar baş verib. Qəzalardan ən böyüyü 1988-ci ildə Ermənistanın Hamamlı rayonu (sonradan Spitak) ərazisində baş vermiş zəlzələ zamanı qeydə alınıb. Bu zəlzələdən sonra stansiyada baş vermiş nasazlığa görə SSRİ rəhbərliyinin qərarı ilə AES bağlanmışdı. Elə həmin qəzada generatorun partlaması və əlaqə kabellərinin yanması nəticəsində stansiyanın onsuz da etibarlı olmayan müdafiə sistemi də məhv olmuşdu. Lakin stansiyanın yaratdığı təhlükələrə baxmayaraq rəsmi İrəvan 1995-ci ildə onun fəaliyyətini yenidən bərpa etdi.

"Metsamor"un təhlükəsini anlayan beynəlxalq ictimaiyyət stansiyanın bağlanmasına çalışır, lakin hələlik də heç bir nəticə əldə olunmayıb. Avropa İttifaqı "Metsamor"un 2011-ci ildən gec olmayaraq bağlanmasını və Ermənistana enerji ehtiyaclarını ödəmək üçün 100 milyon avro verməyə hazır olduğunu bildirsə də qarşı tərəf 1 milyard avro tələb edib. Nəticədə razılaşma baş tutmayıb. Bu isə Ermənistanın stansiyanın bağlanmasında maraqlı olmadığını göstərir. Ermənistan "Metsamor"u 2031-ci ilədək istifadə etmək niyyətində olduğunu gizlətmir. Rəsmi İrəvan stansiyanın fəaliyyətini da-



yandırmamasının səbəbini alternativ enerji mənbəyinin olmaması ilə əlaqələndirir. Lakin Avropa İttifaqının hesablamalarına görə, qəzalı vəziyyətdə olan bu AES-də hər an baş verə biləcək partlayışdan təkcə Ermənistan deyil, bütün Cənubi Qafqaz, Yaxın və Orta Şərq ölkələri də ciddi ziyan görəcək.

Nüvə texnologiyası üzrə mütəxəssislərin fikrincə, "Metsamor"un istifadə müddəti 2001-ci ildə başa çatıb. Dünya təcrübəsinə görə, istifadə müddəti başa çatmış nüvə reaktorlarının fəaliyyəti dayandırılmalıdır. Almaniyada və digər ölkələrdə 1976-cı ildə tikilmiş reaktorlar artıq sıradan çıxarılıb. BMT-nin nüvə təhlükəsizliyi Konvensiyasına görə, zərərli və partlayış təhlükəsi olan texnologiyaların qurulması qonşu ölkələrdə qiymətləndirilməli, ətraf mühitə təsiri və bunun törədəcəyi hər hansı fəsadlar haqqında həmin dövlətlərlə razılıq protokolu imzalanmalıdır. Lakin nə Azərbaycan, nə də Gürcüstan razılıq protokollarının tərtib olunmasına razı deyil.

Beqin-Sadat Mərkəzinin və Bar-İlan Universitetinin baş elmi işçisi Aleksandr Murison "Washington Times" nəşrində dərc olunan məqaləsində yazır ki, Ermənistan nüvə materialından "çirkli bombaların" yaradılması üçün istifadə edə bilər.

"Cənubi Qafqazla bağlı böyük həyəcan keçirən Gürcüstan hakimiyyəti bir neçə Ermənistan vətəndaşının saxlanılması barədə məlumat yayıb. Məlumata görə, Gürcüstanda 200 milyon dollar dəyərində nüvə materialları satmaq istəyən bir neçə erməni və Gürcüstan vətəndaşı saxlanılıb. Onların satmağa çalışdığı "Uran-238" yüksək radioaktiv maddə kütləvi surətdə öldürücü qurğuların hazırlanmasında istifadə olunur",- deyə məqalədə bildirilir.

Müəllif qeyd edir ki, "çirkli bombalar" terrorizmlə mübarizədə bütün dünya üzrə birinci dərəcəli təhlükəli əhəmiyyətə malikdir: "Ermənistanın da bu bombaları xüsusən işğal etdiyi Azərbaycan ərazilərində hazırlaması barədə məlumatlar var. Hazırda həmin ərazilərdə Ermənistan narkotik qaçaqmalçılığı ilə məşğul olur".

Gürcüstanda saxlanılan qaçaqmalçılar "Metsamor" AES-in keçmiş işçiləri və Ermənistan parlamentinin keçmiş deputatı "Şmays" ləqəbi ilə tanınan Arakel Movsesyanın yaxın qohumları idi. Movsesyan "Qarabağ klanı"nın əsas üzvlərindən biri olan general Manivel Qriqoryanın adamıdır və Ermənistan hökumətinin tapşırığı ilə müxtəlif cinayətləri həyata keçirməklə tanınıb. Baş nazir Nikol Paşinyan "Qarabağ klanı"na qarşı mübarizəyə başlayan kimi Movsesyan bu ilin yanvarında ABŞ-a qaçıb.

Ermənilərin uran qaçaqmalçıları işğalçı ölkənin "çirkli bombalar" hazırlamasını da gündəmə gətirdi. 2016-cı ildə dördgünlük Aprel döyüşlərindən sonra Ermənistanın sabiq baş naziri Qrant Baqratyanın, həmçinin "komandos" ləqəbli general Arkadi Ter-Tadevosyanın "çirkli bomba" adlandırılan atom bombasına malik olduqlarını iddia edərək, Azərbaycanı vurmaqla hədələməsi bu versiyanı gücləndirdi. Ancaq bu, mənasız şoudan və yalançı qara-qorxudan başqa bir şey deyil. Ermənistan rəhbərləri onabuna boş yerə "xox" gəlməkdənsə yaxşı olardı ki, "Metsamor"u zərərsizləşdirmək barədə düşünəydilər. Çünki əgər "Metsamor"da partlayış baş versə Ermənistan ölülər və əlillər ölkəsinə çevriləcək.

✍ **Vəli İlyasov, *"İki sahil"***

---

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**SOCAR-da neft əməliyyatlarının aparılması üçün tələb olunmayan material qiymətlilərinin açıq hərrac yolu ilə özgəninkiləşdirilməsinə dair elan edir**

***I. Hərraca çıxarılan material qiymətliləri:***

**Mal-materiallar:** Qazma tullantılarının zərərsizləşdirilməsi prosesində bərpa olunan

**Sintetik əsaslı yağ qarışıqları**

Tərkibi və keyfiyyət göstəriciləri haqqında laborator təhlilləri əlavə olunur;

***II. Hərracda iştirak etmək üçün təqdim edilməli sənədlər:***

*- Hərracda iştirak üçün müraciət (əlavə olunur);*

*- Hərracın nəticələrinə uyğun olaraq, hərracın qalibi olduğu təqdirdə material qiymətlilərinin mütləq alınacağı barədə təminat məktubu;*

*- Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti;*

*- Hüquqi şəxslər üçün təsis sənədlərinin notarial qaydada təsdiq edilmiş surəti;*

Tələb olunan sənədlərin elektron surətləri Hərrac Komissiyasının əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli hərrac təkliflərinin təqdim edilməsinin son gününədək Hərrac Komissiyasına təqdim edilməlidir.

***III. Hərracda iştirak haqqında ərizənin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Hərracda iştirak haqqında ərizənin əsli, II bölmədə göstərilmiş tələb olunan digər sənədlərlə birlikdə 11.07.2019-cu il, Bakı vaxtı ilə saat 16-30-dək Hərrac Komissiyasına təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan müraciət qəbul edilməyəcəkdir.

***IV. Hərracçı təşkilatın ünvanı:***

SOCAR TOWER, AZ1029; Bakı şəhəri; Nərimanov rayonu; H.Əliyev pr.,121;

**Əlaqələndirici şəxs:**

Rüstəmzadə Rüstəm Seyfullayeviç.

Ekologiya idarəsinin Texniki istehsalat şöbəsinin rəisi

+994125210836 (daxili 21058)

+994508421058 (mobil)

Rustam.Rustamzade@socar.az

***V. Hərracın keçiriləcəyi tarixi, vaxtı və yeri:***

15.07.2019-cu il tarixində, Bakı vaxtı ilə saat 14.00-da elanın IV qrafasında göstərilmiş ünvanda baş tutacaqdır.

**Ekologiya İdarəsinin Hərrac Komissiyası**

---

# İFTİRAÇI VƏ ŞANTAJÇI ƏLİ KƏRİMLİNİN YENİ ŞOUSU

**Azərbaycanda dağıdıcı müxalifətin "başında duran" və ictimai-siyasi sabitliyi pozmaq üçün min bir oyundan çıxan AXCP sədri Əli Kərimli ənənəsini davam etdirməkdədir. Öz sədri Əbülfəz Elçibəydən tutmuş, onun üçün sinəsini güllə qabağına vermiş bütün insanlara xəyanət edən Əli Kərimli şəxsi maraqları naminə xalqa çağırışlar edərək onu hakimiyyətə qarşı qaldırmağa, ölkədəki sabitliyi pozmağa çalışır. Bunun üçünsə o və ətrafındakılar ən müxtəlif vasitələrdən istifadə etməyə çalışırlar.**

Məlum olduğu kimi, Əli Kərimlinin ötən illər ərzində keçirdiyi "şoulara" Azərbaycan ictimaiyyəti, xalqı heç zaman dəstək verməyib. Müşahidələrdən də görürük ki, belə mitinqlərə ictimaiyyət arasında maraq yox dərəcəsindədir. Təbii ki, bunun da çox ciddi səbəbləri var. Çünki Azərbaycan xalqı onun kimliyini çox yaxşı bilir və bu baxımdan da Əli Kərimlinin mitinq keçirmək təşəbbüsləri qeyri-ciddi qəbul olunur. Əli Kərimlinin iftiraçı, şantajçı, siyasi oyunlar ustası olduğu artıq cəmiyyətdə hamıya məlumdur. Görünür buna görədir ki, indiyə kimi istədiklərinə nail ola bilməyən, xalqın dəstəyini qazana bilməyəcəyini görən Əli Kərimli taktikasını dəyişmək qərarına gəlib. İndi də marafon təşkil etməyə çalışan AXC sədri bununla həm havadarlarının gözünə girməyə, həm də ölkədə daha çox qarışıqlıq yaratmağa çalışır. Elə bu günlərdə Ə.Kərimlinin keçirməyə cəhd göstərdiyi "xeyriyyə marafonu" da məhz ictimai asayişin pozulmasına yönəlmiş növbəti addım oldu. O, bu addımını guya ictimai asayişi kobud şəkildə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə yardım göstərmək məqsədilə etdiyini açıqladı və təəssüflər olsun ki, bundan da özünün "tanıtım kampaniya"sını təşkil etməyə çalışdı. Kərimli və onun tərəfdarları bu cür addımlarla ölkəmizin hüquq mühafizə orqanlarına, məhkəmə sisteminə qara yaxmağa, onların fəaliyyətinə kölgə salmağa, dövlət orqanlarına etimadsızlıq yaratmağa, xaricdəki ağalarına daha yaxşı yarınmağa və əlbəttə ki, pul qoparmağa çalışırlar. Əks halda, narazı qaldıqları məhkəmə qərarları barədə digər instansiyalara müraciət edib, ən nəhayət,Avropa Məhkəməsinə üz tuta bilərdilər. Amma Kərimliyə bu lazım deyil. Dinc, hüquqi yol ona və digər radikallara sərf etmir. İğtişaş, qeyri-sabitlik, qarşıdurma - Kərimlinin istədiyi məhz budur. Onun "yardım kampaniyası"nın arxasında da məhz bu niyyət dayanırdı. Hər kəsə bəllidir ki, nə Ə.Kərimli, nə ətrafındakı 5-10 nəfər hansısa xeyriyyə aksiyası üçün heç vaxt toplanmaz və heç bunu onlardan gözləməyə belə dəyməz. Təbii ki, yenə də məqsəd hay-küy salmaqla xarici emissarlarına necə "fəaliyyət" göstərdiklərini nümayiş etdirmək oldu. Onlar bunu bir müddət əvvələ qədər onsuz da sosial şəbəkələrdə edirdilər. Bunu reallaşdırmaq istədikləri "xeyriyyə marafonu"nda isə biabır olmaları ilə yanaşı, həm də avantürist olduqlarını bir daha sübuta yetirmiş oldular.

Bundan başqa, Əli Kərimli ölkəmizdə həyata keçirilən və inqilabi xarakter daşıyan sosial islahatlardan, Azərbaycan vətəndaşının rifah halının getdikcə yaxşılaşmasından, vətəndaşların öz dövlətini, prezidentini dəstəkləməsindən olduqca narahatdır. Məlum olan budur ki, normal müxalifətçilikdən, siyasi mübarizə üsullarından uzaq olan Kərimli yalnız və yalnız nifrət aşılamağa çalışmaqla nəyəsə nail olmaq istəyir. Ancaq tutduğu bu radikal, düşmənçilik mövqeyi ilə nəinki "arzusuna" çata bilir, cəmiyyətdən heç bir dəstək də ala bilmir.

✍ **Sevinc Azadi, *"İki sahil"***

# Gender bərabərliyi elə bir ali məqsəddir ki...

***"Qadını "zəif cins" olaraq görmək bir böhtan və kişilərin qadınlara qarşı etdiyi haqsızlıqdır. Əgər güc dedikdə kobud qüvvət nəzərdə tutulursa, əlbəttə, qadınlar kişilərdən daha az vəhşidirlər, ancaq güc əgər əxlaqi bir gücdürsə, o zaman qadınlar kişilərdən düşünə bilməyəcəyiniz qədər üstündürlər. Qadınlar bizdən daha fədakar, daha cəfakar, daha cəsur insanlardır."***



Yazıma hind xalqının milli azadlıq hərəkatının lideri Mahatma Qandinin bu fikirləri ilə başlamağım səbəbsiz deyil. Ona görə ki, bu gün sivilizasiyanın ən yüksək həddinə çatdığını iddia edən bəşəriyyətin tarixi gender bərabərliyi uğrunda güzəştsiz mübarizələrlə zəngindir . Sivil insan cəmiyyəti formalaşandan çağdaş dövrümüzədək öz təbii hüquqları uğrunda yorulmadan mübarizə aparan zərif cinsin nümayəndələri bu yolda ən müxtəlif çətinliklərə, psixoloji-mənəvi baryerlərə mətinliklə sinə gəriblər və son nəticədə görkəmli mütəfəkkir Mahatma Qandinin təbirincə desək, ictimai həyatın ən müxtəlif sahələrində kişilərdən heç də geri qalmadıqlarını, müəyyən sahələrdə hətta onları üstələdiklərini əməli fəaliyyətləri ilə sübut ediblər.

### Yoxsulluğu azaltmanın, davamlı inkişafın və doğru idarəetmənin təməli

*"Gender bərabərliyi yoxsulluğu azaltmanın, davamlı inkişaf yaratmanın və doğru idarəetmə meydana gətirmənin təməlidir. "*

Bu fikirlər isə BMT-nin sabiq Baş katibi Kofi Annana məxsusdur. Həqiqətən də gender bərabərliyini təmin etmədən bu gün nə sivil dünyanın bir nömrəli problemi olan yoxsulluğun aradan qaldırılması, nə davamlı inkişaf, nə də doğru idarəetmə mümkün deyil. Görünür, elə bu səbəblərdəndir ki, gender bərabərliyi dedikdə gözlərimiz önünə ilk növbədə kişilər və qadınlar arasında bərabər maddi rifah, bərabər imkanlar, dəyərlərin oxşar sistemi, qərarların qəbul edilməsi prosesində bərabərhüquqlu iştirak, resurslara və qazanclara bərabərhüquqlu nəzarət kimi ali dəyərlər gəlir. Başqa sözlə, gender bərabərliyinin bərqərar olduğu cəmiyyət - qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir.

Şübhəsiz, sivil dünyanın bir parçası olan Azərbaycanda da müstəqilliyin bərpasından sonra, xüsusilə son 26 ildə dövlətin həyata keçirdiyi gender siyasəti yoxsulluğu minimuma endirməyə, bütün sahələrdə davamlı inkişafa nail olmağa və idarəetməni daha da təkmilləşdirməyə gətirib çıxarıb.

### Ailənin dayağı, ocağın qoruyucusu...

*"Qadınlar ailənin dayağı, ocağın qoruyucusudur."*

Mübaliğəsiz demək olar ki, ulu öndər Heydər Əliyevin bu müdrik kəlamı sırf Azərbaycan qadınına ünvanlanıb. Çünki başqa xalqlardan fərqli olaraq ailənin dayağı və ocağın qoruyucusu funksiyasını hüquqi norma kimi qəbul etmək, bu tarixi missiyanı özünün həyat amalına çevirmək yalnız Azərbaycan qadınına xas olan ali keyfiyyətlərdir. Məhz bu keyfiyyətlər Azərbaycan cəmiyyətində gender bərabərliyinin təmin edilməsinin bütün dövrlərdə ən aktual problemlərdən biri olduğunu bir daha təsdiqləyir.

Milli Məclisin deputatı Jalə Əliyeva mövzu ilə bağlı qəzetimizə açıqlamasında gender siyasətinin uğurla həyata keçirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini vurğuladı: " Ölkədə uğurla həyata keçirilən dövlət qadın siyasətinin hüquqi əsasını məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul olunmuş Milli Konstitusiyamız təşkil edir. Əsas Qanunumuzda gender məsələsi ilə bağlı bütün problemlərin qanunvericilik çərçivəsində həll edilməsi üçün zəruri hüquqi baza mövcuddur. Konstitusiyanın qadın hüquqlarının müdafiəsinə etibarlı zəmin formalaşdıran 25-ci maddəsində kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğu birmənalı şəkildə təsbit edilir."

### Adət-ənənələrə, ailəyə bağlılıq, yüksək humanizm, nəciblik, xeyirxahlıq və...

*"Əgər qadınlara kifayət qədər səhiyyə, təhsil və iş imkanları təqdim etməsəniz potensialınızın yarısını itirəcəksiniz."*

Çilinin ilk qadın prezidenti Mişel Baçeletin bu sözlərinin real həyatda öz təsdiqini tapmasının ən bariz nümunəsini müasir Azərbaycanın timsalında görmək olar. Deputat J. Əliyeva belə hesab edir ki, Azərbaycan xalqı və dövləti tarixən özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib və xeyirxah xanımları ilə qürur duyub: " Hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti bir çox inkişaf etmiş Avropa ölkələrindən və ABŞ-dan xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib. Nəticədə Azərbaycan qadını XX əsrdə bir neçə əsrə bərabər inkişaf yolu keçib."

J.Əliyeva Azərbaycanda gender bərabərliyinin təmin olunmasının, xüsusilə qadınların ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında fəal iştirakının prioritet istiqamət olmasını konkret faktlarla diqqətə çatdırdı: " Son 16 ildə Ulu Öndərin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılmasında da bütün dünyaya örnək ola biləcək yeniliklərə imza atıb. Ölkə başçısının reallaşdırdığı uğurlu gender siyasəti nəticəsində bu gün qadınlarımız dövlət idarəetmə, hüquq və məhkəmə sistemində təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatımızda fəal iştirak edirlər. Onlar ölkə üzrə məktəb müəllimlərinin 71, həkimlərin 61, elmi işçilərin isə 50 faizini təşkil edirlər. Bütün bunlardan əlavə hazırda ölkədə 100-dən çox qeyri-hökumət qadın təşkilatının uğurla fəaliyyət göstərməsi, 1995-ci ildə Ulu Öndərin tövsiyəsi ilə Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının yaradılması da gender bərabərliyinə dövlətimizin diqqət və qayğısının əyani təzahürüdür."

Müsahibimizin qənaətinə görə, bütün bunların bariz nümunəsini ölkənin ali qanunvericilik orqanının fəaliyyətində də görmək mümkündür: "Bu gün mənim də təmsil olunduğum Milli Məclisdə gender bərabərliyinin təmin olunması baxımından nümunəvi parlamentarizm ənənələri uğurla davam etdirilməkdədir. Bu gün qadın deputatların sayı 20-yə çatıb. Yəni xanım millət vəkillərimiz Milli Məclisdəki deputatların 17 faizini təşkil edir ki, bu da hətta bir çox Qərb ölkələri ilə müqayisədə yüksək göstəricidir. Bir sıra beynəlxalq təşkilatların üzvləri olan qadın deputatlarımız Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün əllərindən gələni əsirgəmirlər."

### Dünyada gender bərabərliyi hərəkatın ön cərgəsində addımlayan qadın lider

Deputat belə hesab edir ki, Azərbaycanda qadın hərəkatının geniş vüsət almasında ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir: "Ölkəmizdə cəmiyyətin bütün həssas zümrələri kimi, qadınların da hüquqlarının etibarlı müdafiəçisi olan Mehriban Əliyeva bu gün, eyni zamanda, dünyada gender bərabərliyi uğrunda hərəkatın ön cərgələrində addımlayan lider qadınlardan biri kimi tanınır. Son illər məhz Azərbaycanın birinci xanımının təşəbbüsü və dəstəyi ilə Bakıda keçirilən bir sıra beynəlxalq miqyaslı tədbirlərdə gender bərabərliyinin təminatı, qadın hüquqlarının qorunması kimi məsələlər prioritet müzakirə mövzusu olub."

Millət vəkilnin qənaətinə görə, bu gün məhz Mehriban xanımın şəxsində Azərbaycan qadınının UNESCO və İSESCO kimi mötəbər beynəlxalq qurumlarda etibarlı nümayəndəsi, nəcib və xeyirxah elçisi vardır: "Bu baxımdan da Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin, bir sözlə, ölkə həqiqətlərinin dünyada təbliği ilə məhdudlaşmır, eyni zamanda, dünya mədəni irsinin qorunmasına, bəşəriyyəti ciddi narahat edən qlobal problemlərin həllində mövqelərin yaxınlaşdırılmasına xidmət edir."

J.Əliyeva belə hesab edir ki, son vaxtlar ölkəmizdə əhalinin sayının sürətlə artması, xüsusilə bu yaxınlarda 10 milyonuncu Azərbaycan vətəndaşının dünyaya gəlməsi aparılan uğurlu gender siyasətinin və demoqrafik inkişafın məntiqi nəticələrindəndir.

### Qədəmlərin mübarək, on milyonuncu vətəndaşımız!

Bu sözlər ölkədə 10 milyonuncu sakinin dünyaya gəldiyi 2019-cu ilin 6 aprelində böyük ruh yüksəkliyi ilə bu əlamətdar hadisəni qeyd edən hər bir Azərbaycan vətəndaşının dilindən düşmürdü.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü, Yeni Azərbaycan Partiyasi Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva da aprelin 6-da hazırda işğal altında olan Dağlıq Qarabağın Ağdərə rayonunun məcburi köçkün ailəsində 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsini ölkədə aparılan uğurlu gender siyasətinin və demoqrafik inkişafın məntiqi nəticəsi hesab edir: "Azərbaycan vətəndaşları Rauf Həsənovun və Nigar Ocaqovanın ailəsində doğulan və sayca 10 milyonuncu olan qız övladına birinci xanım Mehriban Əliyevanın şərəfinə - Mehriban adının qoyulması ölkə ictimaiyyətinin Azərbaycanda gender bərabərliyinin təmin olunmasına əvəzsiz töhfələr verən Birinci vitse-prezidentə sonsuz rəğbət və məhəbbətinin əyani təzahürüdür. Heç də təsadüfi deyildir ki, 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi münasibətilə həmin körpənin valideynlərini və xalqımızı ilk təbrik edən, uşağın valideynləri ilə görüşərək xoşbəxt ailəyə Azərbaycanın 10 milyonuncu sakini sertifikatını təqdim edən və Bakı şəhərinin mərkəzində dövlət tərəfindən bu ailəyə mənzil hədiyyə edən də məhz elə cənab Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva olmuşdur."

Həmsöhbətimiz dövlət başçısının və xanımının Respublika Perinatal Mərkəzində 10 milyonuncu vətəndaşımızın valideynləri ilə görüşü zamanı diqqəti xüsusi cəlb edən bir mühüm məqamı da xatırlatdı. Bildirdi ki, görüş zamanı cənab Prezidentin diqqətə çatdırdığı "Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır" sözləri bir daha sübut edir ki, əhalinin həyat səviyyəsinin durmadan yüksəldilməsi, xüsusilə ailə institutunun möhkəmləndirilməsi dövlətimizin daim diqqət mərkəzindədir: " Təqdirəlayiq haldır ki, Azərbaycanda gender bərabərliyinin əyani təzahür formalarından biri, hətta mən deyərdim ki, birincisi olan demoqrafik inkişaf aprelin 6-dan sonra da sürətlə davam etməkdədir. Bu reallığı Dövlət Statistika Komitəsinin əhalinin sayı ilə bağlı bu il mayın 1-nə olan məlumatı da təsdiq edir. Həmin məlumata görə, artıq ölkə əhalisinin sayı 10 milyon 16 min nəfərə çatmışdır. Hesab edirəm ki, bu, ölkəmizdə gender bərabərliyinin yüksək səviyyədə olmasının göstəricisidir"

**Əhməd Qurbanoğlu,**
***"İki sahil"***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Torbaçı Əli Kərimlinin dilənçilik marafonu



Vəzifə hərisliyi mərəzinə düçar olan "kreslo həsrətlilərindən" söhbət düşəndə adı birincilər sırasında çəkilən, hələ də "bəlkə də qaytardılar" monoloqunu təkrarlayan AXCP sədri Əli Kərimlinin çıxmadığı hoqqalar qalmadı. SOROS-un qapazaltısı, FETÖ-nün tulapayına möhtac olan bu zat ermənipərəst dairələri, dini radikalizmi təbliğ edənləri, terror törədənləri dəstəkləməklə, xarici dairələri təlimatlandırmaqla da xəyanətlərini davam etdirir.

Özünü "ana müxalifətin" aparıcı simalarından hesab edən Əli Kərimli siyasətdə naşı olduğunu bütün məqamlarda əməli ilə təsdiqləyir. Dağıdıcılıqda tayı-bərabəri olmayan "islahatçı sədr"in ideyası Azərbaycana qərəzli mövqedə dayanan xarici ölkələrlə əlaqələrini möhkəmləndirmək, təxribatçı qüvvələrlə birgə çalışmaqdır. "Fəaliyyətinin" bütün məqamlarında, başabəla çıxışlarında xalq, dövlətçilik əleyhinə böhtanlar yağdıran sədrin "siyasi karyerasında" ermənilərlə işbirliyini təsdiq edən amillər istənilən qədərdir. Ermənilərdən başqa dünyada məşhur olan terrorçu qrup və radikal islamçı təşkilatlarla da əlaqə yaradaraq Azərbaycana qarşı böhtan kampaniyasında fərqləndiyi üçün "xidmətləri" də əvəzsiz qalmır. "Mən Azərbaycan dilində yalnız söyüş söyürəm" deməklə xalqımıza yuxarıdan aşağı baxmağı ilə fəxr edən erməni Leyla Yunus-Barseqyan, xarici ölkələrdə Azərbaycanla bağlı keçirilən tədbirlərdə bayrağımıza hörmətsizlik edərək arxasını çevirən Xədicə İsmayıl kimilərə dəstək göstərən, "beşinci kolon"u, respublikamızdan kənarda " mühacir şəbəkəsi"ni formalaşdırmaqla pis niyyətlərini həyata keçirən Əli Kərimlinin düşərgədə mənəviyyatsızlıq simvolu adlandırılması da təsadüfi deyil. Partiyalar arasında nifaq salmaqla əməllərini sığortalayan, anti-Azərbaycan təbliğatı sahəsində birincilər sırasında dayanan "islahatçı sədr"in xəyanətlərinə alternativ ola bilməz, "Milli Şura" adlı qurama təşkilat yaranandan özünü bu qurumun mütləq sahibi hesab edərək, başqalarına böhtan atmaqla məşğul olan, " erməni lobbisinin fəxri üzvü, dayısı" adını daşımaqdan utanmayan bu "siyasətçi" həmişə şəxsi maraqlarına görə dövlətçiliyimizə xələl gətirir.

Düşərgədə qarışıqlıq salmaq, prezident seçkilərində "vahidlik" şansına yiyələnmək üçün mövqeləri tərs mütənasib olan partiyalarla eyni zamanda, separat danışıqlar aparan Əli Kərimlinin bu "bacarığı" isə həmişə sadiq qaldığı xəyanətkarlıq əqidəsinə tam uyğundur. İnhisarında olan KİVlər, sosial şəbəkələr vasitəsilə əzəli və əbədi rəqibi Müsavata qarşı cəbhə yaradan , "dostlarını" ittiham edən Əli Kərimlinin adını anadan olduğu Azadkənd kəndinin (Saatlı rayonu) sakinləri belə nifrətlə çəkirlər. Azərbaycana qarşı təxribatlardan "bəhrələnərək" daxili çirkinliklərini ortaya tökən Əli Kərimli komandasının yeganə məqsədi havadarlarının əlaltısına çevrilməklə daha çox qranta sahib olmaqdır.

Ölkəmizə olan maraqları, isti münasibətləri xarici havadarlarının böhtan kampaniyası ilə qaralamağa çalışan Əli Kərimli və "Milli Şura"da toplaşan eyni əqidəli radikallar Azərbaycan xalqının sevinclə qarşıladığı bütün islahatlara , yeniliklərə məkrli don geyindirərək qara yaxmağa çalışırlar. Əli Kərimlini düşərgənin irinli yarası, kor bağırsağı adlandıranların qeyd etdiyi kimi, ustadına kəm baxan belələri dünyaya xəyanət mücəssəməsi kimi gəlir, ətrafı zəhərləyirlər.

Bu günlərdə ianə toplamaq adı ilə dilənçilik marafonu təşkil edən Əli Kərimlinin çoxsaylı adına daha biri əlavə olunub: Torbaçı.

İllər boyu Müsavatı qaralayan məkrbazın bu əməlinin də arxasında Azərbaycana qarşı böhtan kampaniyası dayanır. Düşərgə mənsublarının dediyinə görə, Əli Kərimlinin "torbaçı"lığının əsasında da məkrli niyyət dayanır. "Mənəmlik" xəstəliyinə düçar olan, müxalifətə yeni lider gəlməsindən xoflanaraq dəryada balıq, səhrada qum sevdasına düşən bu araqarışdıran iblis kimi, əlaltıları da diqqəti özlərinə çəkmək üçün "ianə marafonu" keçirmək qərarına gəliblər. Bu "təşəbbüslərini" isə nədənsə "mehriban düşmən" olduqları Müsavatın qərargahında gerçəkləşdirdilər. Hüquq mühafizə orqanları ictimai asayişin qorunması üçün vəzifələrini yerinə yetirəndə Əli Kərimlinin agent şəbəkəsi, trolları "müxalifətin əsas liderini həbs etdilər" hay-küyü salıb, vay-şivən qopardılar. Cari ilin 19 yanvar mitinqindən sonra "ölkədə bütün islahatlar mitinqə görə edilir" iddiasını yeniləmək üçün bu "marafon"dan vasitə kimi, istifadə edən çete üyələrinin "təkcə bu gün AXCP sıralarına 45 nəfər yeni üzv qəbul edildi"" açıqlamaları da xəyallardan başqa bir şey deyildir. Görünür onlar AXCP-dən istefa verənlərlə yeni üzvlərin sayını səhv salıblar. Marafon adı ilə dövlətə qarşı itaətsizlik çağırışları səsləndirən, Azərbaycanın milli maraqlarına qarşı çıxdığını "şeytanla da əməkdaşlığa hazıram" tezisinə sadiq qalmaqla gerçəkləşdirən Əli Kərimli asayişi pozmaqla kifayətlənməyib, sevimlisi Leyla Yunus kimi polisə qarşı itaətsizlik göstərmiş, hüquq qaydalarını pozmuşdur.

Sələfi Əbülfəz Elçibəyə qarşı apardığı kampaniyaları ilə ətrafındakıların nifrətini qazanan Əli Kərimli ermənilərə rəğbət bəsləyən oğlunu da özü kimi Vətənə xəyanətkarlıq ruhunda tərbiyə edir. İntriqabazlığı, başqalarına atdığı böhtanları ilə məşhurlaşan "islahatçı sədr" naqis əxlaqi keyfiyyətləri ilə ətrafı çirkləndirir. Çirkab bataqlığının həşəratı kimi ətrafa üfunət yağdıran bu buqələmun dövlətimizə qarşı apardığı xəyanətlərinə görə qanun qarşısında cavab verməli, ictimai qınağa çəkilməli və lənətlənməlidir. Necə deyərlər, həvəsdi, bəsdi. Ölünü öz başına qoysan kəfəni belə yırtar. Əli Kərimli kimi siyasi ölülərə Vətən torpağında yer olmamalıdır.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Dağılan və dağılmayan müayinə üçün sərf materialları və elektrokimyəvi mühafizə vasitəsinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25116-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi üçün təklifinin qüvvədə qalmasına dair bank təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 (ƏDV-ilə) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank: Commerzbank AG,
Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas,
New York S.W.I.F.T: COBADEFF
S.W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC #
USD 04-164-504 Beneficiary Bank:
The International Bank of Azerbaijan Republic "Customer Service Department
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2XSWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
TAX İD: 9900003871
Account No:
AZ08IBAZ38110019789306332120 EUR
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Müqavilənin ödəmə müddəti:**
Satınalan təşkilat satınalınacaq mallar görə ödəniş mallar Alıcıya çatdırıldıqdan və təhvil verildikdən sonra hissə-hissə 30-60 təqvim günü ərzində yerinə yetirilməsi nəzərdə tutulur.
**Bank təminatı:**
*1. İddiaçının 2450 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*
*2. Bank təminatlarının əsli ayrı zərfdə müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*3. Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.*
*4. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın V paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
*5. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.*
*Qeyd: Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 50% avans ödənişi yerinə yetirilməsi nəzərdə tutulur.*
*6. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.*
***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Əmiraslanov Emil.
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-07-67
Mob: +994 50 842-51-00
Elektron ünvan: Emil.Amiraslanov@socar.az
***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)
***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.
***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**müxtəlif alüminium əsaslı, bilərzikvari qalvanik anodlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25119-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 16.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 177.00 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
AZ38IBAZ38010019449306332120 AZN
İntermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33 / ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X / TAX İD: 9900003871
Beneficiary: State Oil Company of Azerbaijan Republic
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120 GBP

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Bank təminatı:**
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) % məbləğindən aşağı olmamalıdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.
***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:** Zeynalov Samir
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-00-00 25-067
Korporativ mobil: +994 50 842 50 67
Elektron ünvan: samir.zeynalov@socar.az
***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)
***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 23.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.
***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
# iki sahil
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 118 (7373) / Cümə axşamı, 4 iyul 2019-cu il




## Yeməkdən sonra bunları etməyin

**Yatmayın**
Əgər insan yeməkdən dərhal sonra yatarsa qarında köp artır. Araşdırmalara əsasən, yatmazdan çox öncə yemək yeyən insanlarda insult riski aşağıdır. Yatmağa bir neçə saat qalmış yemək məsləhətdir.

**Siqaret çəkməyin**
Yeməkdən sonra siqaret çəkmək orqanizmi kanserogenlərlə daha çox zəhərləyir. Bir neçə saat gözləmək vacibdir. Tədqiqatlar göstərib ki, yeməkdən dərhal sonra bir siqaret çəkmək 10 siqaret çəkməyə bərabərdir.

**Meyvə yeməyin**
Həkimlər meyvəni yeməkdən əvvəl yeməyi məsləhət görüblər. Çünki meyvələri həzm etmək üçün böyük miqdarda fermentlər lazımdır.

**Duş qəbul etməyin**
Duş əllərdə və ayaqlarda qan axınını artırır, bu isə mədəyə qan axınını azaldır. Nəticədə həzm sisteminin işində problemlər yaranır, mədədə ağrı riski artır.

**Çay içməyin**
Yeməkdən sonra çay orqanizmin dəmiri mənimsəməsinə mane olur. Çayda olan tantin yeməkdəki zülal və dəmirlə əlaqəlidir. Bu, dəmirin səviyyəsinin düşməsinə səbəb olur. Dəmir çatışmazlığı anemiyaya, zəifliyə, yorğunluğa və başgicəllənməsinə səbəb ola bilər.

R.Bədəlova, *"İki sahil"*

## "Qalatasaray"dan iki rəsmi transfer



"Qalatasaray" növbəti transferlərini açıqlayıb.
Milli.Az klubun saytına istinadən xəbər verir ki, İstanbul təmsilçisi "Fənərbağça"dan ayrılan 29 yaşlı müdafiəçi Şener Özbayraklı ilə 2 illik müqavilə imzalayıb.
Bundan əlavə, İsveç millisinin yarımmüdafiəçisi Cimmi Durmaz da "sarı-qırmızılar"a transfer olub. 30 yaşlı futbolçu ilə 3 illik müqavilə imzalanıb. Durmazın son klubu Fransa "Tuluza"sı olub.

## "Facebook"a iki milyonluq cərimə

Almaniyanın Federal Ədliyyə İdarəsi "facebook" sosial şəbəkəsini iki milyon avro məbləğində cərimələyib.
Milli.Az bildirir ki, "Rosbalt" xəbər verir ki, buna səbəb "Facebook"un qanunazidd kontentlə iş haqqında hesabatlılığın dərc edilməsi qaydalarını pozmasıdır.
Almaniyanın sosial şəbəkələrdə hüquqi normaların tətbiqi haqqında qanunu rəqəmsal şirkətlərdən qanunu pozanlarla mübarizə haqqında hesabatlar tələb edir.
Hərçənd "Facebook"un 2018-ci ilin iyulunda təqdim etdiyi hesabat tam olmayıb.
Qərar hələlik qanuni qüvvəyə minməyib və şikayət edilə bilər.

## Bu avtomobil nömrəsi 306 min dollara satıldı



İngiltərədə "AJ1" unikal avtomobil nömrə nişanı hərracda 306,6 min dollara satılıb.
Milli.Az Trend-ə istinadən bildirir ki, bu nömrə nişanı ilk dəfə 1907-ci ildə polis əməkdaşı, mayor Robert Bouerin avtomobilində peyda olub.
Bu, İngiltərədə hərraclarda satılmış üçüncü ən bahalı avtomobil nömrəsi olub.
Bir neçə il əvvəl "SW1" və "1SW" nömrələri 378,5 min dollara, 2014-cü ildə isə "25 0" nömrəsi 653,6 min dollara satılmışdı.

## 39 dərəcə isti olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək.
Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24, gündüz 30-35, Bakıda gecə 22-24, gündüz 33-35 dərəcə isti təşkil edəcək.
Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 30-40 faiz olacaq.
Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) cənub-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu 22-23 dərəcə isti təşkil edəcək. Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) cənub-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu 23-24 dərəcə isti təşkil edəcək.
Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək.
Havanın temperaturu gecə 18-23, gündüz 34-39, dağlarda gecə 10-15, gündüz 19-24 dərəcə isti təşkil edəcək.
Tibbi-meteoroloji proqnoza görə, Abşeron yarımadasında zəif gilavar küləyinin üstünlüyü, günorta saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da bəzi meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

## Siqaret görmə qabiliyyətini azaldır



Ekspertlər siqaret çəkməyin ağ ciyərlərə zərər verdiyi qədər gözlər üçün də zərərli olduğunu bildiriblər.
İngiltərə Krallıq İnstitutu siqaret çəkənlərdə görmə itkisi riskinin siqaret çəkməyənlərə nisbətən 2 qat daha artıq olduğunu bildirib.
Bunun səbəbi də tütündən çıxan dumanın gözlərə mənfi təsiri və gözə gedən damarları tıxaması təhlükəsidir.
Böyük Britaniyada yerləşən Optimetri Assosiasiyasının sorğusuna əsasən siqaret çəkməklə görmə itkisi arasında əlaqə olduğu aşkarlansa da, insanlar arasında 5-dən sadəcə 1-i bunun fərqindədir.
Siqaret tüstüsündə zəhərli kimyəvi maddələr var. Bu kimyəvi maddələr gözlərə zərər verə bilər.
Misal üçün, bu kimyəvi maddələrdən olan qurğuşun və mis kimi ağır metallar göz bəbəklərinin arxasındakı şəffaf qatda toplanır. Bu işıq şüasını gözün mərkəzinə gətirir və göz bəbəyi qapalı görünür. Bu da katarakt xəstəliyinə səbəb olur.
Siqaret çəkmək gözün retinasının arxasında qan damarlarına zərər verərək şəkər xəstəliyinin yaratdığı vizual pozuntuları ağırlaşdıra bilər.
Ekspertlərin fikrincə, siqaret çəkənlərdə yaşla bağlı "makula degenerasiyası" (sarı nöqtə xəstəliyi) üç dəfə böyük risk təşkil edir. Makula degenerasiyası gözün mərkəzi vizyonuna zərər verə və detalları fərqləndirmədə çətinliklər yarada bilər.
Siqaret çəkənlərdə ani korluq riski çəkməyənlərə nisbətən 16 qat artıqdır. Bu da gözə qan axınında maneəyə səbəb olan optik neyropati nəticəsində baş verir.
İngiltərə Optimetri Assosiasiyasının anketinə 2006 nəfər yetkin şəxs qatıldı. Onlardan 18%-i siqaret çəkməyin görmə itkisini artırdığını söylədi. 76%-i isə siqaret çəkməyin xərçəng xəstəliyinə səbəb olduğunu bildirib.
Assosiasiya üzvləri gözləri qorumağın ən yaxşı yolunun siqaret çəkməyi tərgitmək və müntəzəm olaraq göz müayinəsi etdirmək olduğunu vurğulayıb.
Assosiasiya məsləhətçilərindən olan mütəxəssis Aişah Fazlanie "İnsanlar siqaret və xərçəng arasındakı əlaqəni bilirlər, lakin bir çoxu siqaretin gözlərə təsir etdiyini bilmirlər" deyə bildirib.
Siqaret çəkməyin yaşdan asılı olan makula degenerasiyası kimi görmə itkisini artırdığını bildirən Fazlanie bunun siqareti tərgitmək üçün əhəmiyyətli bir səbəb olduğunu da nəzərə çatdırıb.

Röya Rasimqızı, *"İki sahil"*

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Tikinti üzrə rəis müavini Hikmət Həsənova, qayınanası
**Gövhər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Neft Daşları" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayevə, qardaşı
**İman Qarayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR
Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291
TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net
Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88
Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 04.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 7954
İndeks: 0151, Sifariş: 2177
Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.